# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 16 (3432) Cümə axşamı / 28 aprel - 4 may 2022-ci il Qiymәti 40 qәpik


MÜSAHİB

## Ermənistan bir xarici mərkəzdən idarə olunmur



**Elman Məmmədov,**
Milli Məclisin deputatı

*Ermənilərin Azərbaycana, türkə qarşı düşmənçiliklə yoğrulan irsi xəstəliyi var*

***Brüsseldə sülh müqaviləsinin imzalanmasına yönəlik müsbət notlar siyasi-ictimai müzakirələrdə yer alsa da, hələ də ərazilərimizdə qalan erməni silahlıları Qarabağda "müstəqillikdən, statusdan" danışır və üçtərəfli sazişin əsas müddəalarının icrası ilə bağlı vasitəçi Rusiyanın sülhməramlıları tərəfindən heç bir hərəkətlilik görünmür. Paşinyanın Rusiya səfərindən sonra Ermənistanın Brüssel danışıqlarının üstündən açıq şəkildə xətt çəkdiyi, öhdəsinə düşən öhdəlikləri yerinə yetirməkdən yayındığı bir daha meydana çıxır.***

▸▸ Səh. 2

# Pensiya yaşı müzakirəsi

**Azərbaycanda pensiya yaşı ilə bağlı müzakirələr gündəmdən düşmür. Belə ki, təqaüd yaşının artırılması və ya azaldılması istiqamətində mütəmadi olaraq müzakirə aparılır. Bəzi deputat və ekspertlər təqaüd yaşının aşağı salınmasını zəruri hesab etsələr də, məsələnin əleyhinə olanlar da var. Məsələn, bu yaxınlarda pensiya yaşının azaldılmasına etiraz olaraq, deputat Musa Quliyev çıxış edib. O bildirib ki, pensiya yaşının azaldılmasına gərək yoxdur: "Bu, gündəmdə deyil və olmayacaqdır. Dünyada, ümumiyyətlə, insanların orta ömrü artır. Azərbaycanda da orta ömür artıq 77-nin üzərindədir. Yəqin ki, yaxın gələcəkdə də bizim insanlarımızın orta ömrü artacaqdır". Sözsüz ki, parlament nümayəndəsinin bu fikirləri cəmiyyətdə birmənalı qarşılanmayıb. Millət vəkilinə rəsmi statistikanı diqqətlə nəzərdən keçirmək tövsiyə olunub.**



### Yeri gəlmişkən...

**Hazırda Azərbaycanda kişilərin pensiya yaşı 65, qadınların pensiya yaşı isə 62 il 6 aydır. 2023-cü ildə isə kişilərin pensiya yaşı 65, qadınlarda isə 63 il olacaq.** Statistika Komitəsinin məlumatlarına əsasən son bir il ərzində ölkəmizdə 65 yaşdan daha tez dünyasını dəyişənlərin sayı 22 min 911 nəfər olub 2020-ci ildə Azərbaycanda kişilərin 52,3 faizi, qadınların 32 faizi pensiya yaşına çatmamış vəfat edib. 2019-da müvafiq göstəricilər 41 faiz və 30 faiz olub.

## Azərbaycanda orta ömür artıbmı?

### Azərbaycanda gözlənilən pensiya dövrü 6 ildir

■ **Mövzu ilə bağlı hafta.az-la fikirlərini bölüşən iqtisadçı-ekspert Rəşad Həsənov deyib ki, millət vəkili Musa Quliyevin pensiya yaşının azaldılmasına ehtiyac olmadığı barədə əsaslandırması kökündən yanlışdır:**

"Bu cür fikirlər səsləndirmədən öncə hökumətin rəsmi açıqladığı statistikaya baxsınlar. Əslində, real vəziyyətin təhlili və beynəlxalq təcrübə ilə müqayisə göstərir ki, bu istiqamətdə ədalətsizlik var. Azərbaycanda orta ömür 71 ildir. Hansı ki, gözlənilən orta ömürlə pensiya yaşı arasında ciddi asılılıq olmalıdır. Bu, dünya təcrübəsində tətbiq olunur. Belə ki, dünyada orta göstərici 14 ildir. Yəni insan pensiyaya çıxandan sonra 14 il pensiya ala bilməlidir. İnkişaf etmiş ölkələrdə bu rəqəm, məsələn, Almaniya 21 il, Yaponiya və Kanadada 22 ildir. İnsan pensiyaya çıxandan sonra 22 il yaşayır və bu pensiyanı alır. Baxmayaraq ki, bəzi ölkələrdə pensiya yaşı bizdən üstündür. Hökumət hər zaman deyir ki, Almaniya, Yaponiya, Kanada, Norveçdə pensiya yaşı bizdən üstündür. Ancaq heç vaxt demir ki, Yaponiyada orta ömür 89 ildir. İnformasiyanın digər tərəfini demir. Bu aspektdən baxanda, Azərbaycanda gözlənilən pensiya dövrü 6 ildir. Bu gün pensiyaya çıxanlar 1950-cı illərdə doğulmuş şəxslərdir. 1997-ci ilə qədər Azərbaycanda doğulan insanlara gözlənilən orta ömür müddəti 71 ildir. Hətta 1981-ci ildə doğulan kişilər üçün gözlənilən orta ömür müddəti 65 ildir. Bu, o deməkdir ki, 1981-ci ildə doğulan vətəndaşlara pensiya hüququ yaranmayacaq. Hökumət pensiya sistemini mütləq yenidən dizayn etməlidir". Mütəxəssis vurğulayır ki, pensiya sistemi təşviqedici olmalıdır: "Bu, əmək bazarının leqallaşmasının dəstəklənməsində çox vacib faktordur. Pensiya sistemi güvənverici olmalıdır. İnsanlar 30-40 il çalışıb ahıllıq dövrü üçün bir planlama aparırlar. Bu sistem o qədər güvənverici olmalıdır ki, insanlar burada iştirak etməkdə maraqlı olsunlar. Dolayısı ilə əməyini leqallaşdırsınlar. Nəticədə Azərbaycanda pensiya mexanizminin gəlir dayanıqlılığı təmin olunsun. Ölkədə bir pensiyaçıya xidmət edən işçi 1,2 nəfərdir. Dünya təcrübəsində orta hesabla 3 nəfərdir. Bu rəqəm 3 nəfər olduqda uğurlu hesab olunur. Bizdə əmək bazarı leqal deyil. Çalışanların hər 3 nəfərdən ikisi qeyri-rəsmi əmək bazarının iştirakçısıdır. Buna görə də yaş da daxil olmaqla hökumət məsələyə yenidən baxmalıdır. Bu məsələ MDB ölkələrinin heç birində Azərbaycanda olduğu qədər acınacaqlı deyil. Gözlənilən pensiya dövrü müddəti adlı bir indiqator var. Bu, pensiyanın hesablanması zamanı tətbiq edilir. Hökumət bunu 12 il, 144 ay tətbiq edir. Hökumət bunu 2006-cı ildə təsdiq edib. Həmin ildə Azərbaycanda pensiya yaşı kişilər üçün 58, qadınlar üçün 54 idi. Ondansonrakı dövrdə pensiya yaşını 15 faizə yaxın artırıb. Hökumət gözlənilən pensiya dövrü indiqatorunu dəyişməyib, əslində onu 144 aya deyil, indiki şərtlər daxilində 72 aya salmalıdır. Yəni 144 ay saxlamaqla hesablanmalı olan pensiyanı 2 dəfə az verir. Beləliklə, bu sahədə bir çox problemlər var".

*Azərbaycan əhalisinin cəmi 7 faizini 65 yaşdan yuxarı insanlar təşkil edir*

*Hökumət gözlənilən pensiya dövrü indiqatorunu indiki şərtlər daxilində 72 aya salmalıdır*

### "Pensiya yaşının artırılıb-azaldılması kiminsə istəyi ilə baş tutmur"

■ **Məsələ ilə bağlı hafta.az-a danışan sosioloq Əhməd Qəşəmoğlu isə deyir ki, hazırda Azərbaycan əhalisinin cəmi 7 faizini 65 yaşdan yuxarı insanlar təşkil edir:** "Düzdür, etiraf etmək lazımdır ki, digər ölkələrlə müqayisədə bizdə pensiya yaşı yuxarıdır. Bunu da qeyd edək ki, pensiya yaşının artırılıb-azaldılması sadəcə kiminsə istəyi ilə baş tutmur. Bunun arxasında ciddi iqtisadi məsələlər dayanır. Əslində səlahiyyətli şəxslər mövcud vəziyyəti vətəndaşlara olduğu kimi izah etməlidirlər. Cəmiyyətdə qıcıq yaradacaq fikirlər səsləndirməkdən çəkinməlidirlər. Əslində isə ölkədəki pensiya üçün ayrılan vəsaitlər əhalinin əmək haqqı və digər məslələrlə bağlıdır. Get-gedə hər ölkədə yaşlı adamların sayı artır. Bu onunla bağlıdır ki, əhali artımı bütün ölkələr üzrə aşağıdır və uşaqlar az doğulur. Nəticədə ölkədə işləyən gənclərin sayı azalır. Deməli, vergi ödəyicilərinin də sayı az olur.

O biri tərəfdən istehsalat sahələri, zavodlar, fabriklər, yəni əhalinin işləyib qazanc əldə edə biləcəyi, həmin qazancdan vergi verə biləcəyi yerlər azalır. Bütün bunlar dövlət büdcəsinə mənfi təsir göstərir. Ölkədə gənc əhali və iş yerləri çox olduqca dövlətin pensiya ödəmək imkanları da çoxalır.

Əksinə olanda - iş yerləri azalanda, o biri tərəfdən əhalinin sayı da az olanda vergi ödəyiciləri az olur və dövlət iqtisadi amilin təsiri altında pensiya yaşını qaldırmaq məcburiyyətində qalır. Bunun qarşısını almaq artıq heç kəsin iradəsi çərçivəsində deyil, bu, ölkədəki demoqrafik və iqtisadi vəziyyətə bağlı bir məsələdir. Ölkəmizdə işləmək yaşında olan kifayət qədər adam var. O insanları işlə təmin etmək üçün çoxlu istehsalat müəssisələri açmalı, yeni fəaliyyət sahələri yaratmalı, qeyri-neft sektorunu, kənd təsərrüfatını, xidmət sahələrini, eyni zamanda intellektual güc tələb edən sahələri xeyli inkişaf etdirməliyik".

✍ ***Sevinc***

RAMAZAN



**Hacı Fuad Nurullayev,**
Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini

■ Bir şəxs kirayədə qalsa da, fitrə zəkatı verməyə imkanı çatırsa, bunu verməlidir

■ Əgər qonaq evə bayramöncəsi gündə şam namazınadək gəlib gecə qalacaqsa, onun adına da fitrə pulu çıxarılmalıdır

■ Tanımadığınız və əslində ehtiyacı olmayan adamlara fitrə zəkatı vermək olmaz

▸▸ Səh. 3

GÜNÜN FOTOSU...



Kiyevdə "Ukrayna-Rusiya dostluğu" abidəsi söküldü

GÜNÜN SİTATI

*"Ermənistan XİN-lə təmaslarımız bəzi nəticələr verir"*



**Ceyhun Bayramov,**
Azərbaycanın xarici işlər naziri

KARİKATURA



Sosial şəbəkəsiz qalan rusiyalılar

## Universitetlərdə vəzifə tutan məmurlar

**Elçin Əfəndi,**
təhsil eksperti

Açığını desək, ali məktəblərdə sadəcə adları gedir, boş yerə maaş alırlar.

▸▸ Səh. 4

STATİSTİKA



■ **2022-ci ilin yanvar və fevral ayları ərzində yeni növ koronavirus infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinə iş vaxtına/saatına mütənasib olaraq təxminən 14,2 milyon manatdan çox, qeyri-tibb işçilərinə isə 2,9 milyon manata yaxın müddətli əlavə ödənilib.**

Könüllülərə adambaşına aylıq 250 manat olmaq şərtilə, yanvar və fevral ayları üzrə 1000 manat məbləğində mükafat ödənilib.



▸▸ Səh. 6

## Münbit torpaq qıtlığı

## PREZİDENTİN İŞ GÜNÜ



**Prezident İlham Əliyev Bakı şəhərində və onun qəsəbələrində təhsil müəssisələrinin tikintisi, əsaslı təmiri və bərpası ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.**

Sərəncama əsasən, Bakı şəhərində və onun qəsəbələrində təhsil müəssisələrinin tikintisi, əsaslı təmiri və bərpası işlərinin davam etdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 10 fevral tarixli 3143 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.37.1-ci yarımbəndində nəzərdə tutulmuş 15 milyon 650 min manat vəsait bu Sərəncama əlavəyə uyğun olaraq Bakı Şəhər İcra Hakimiyyətinə ayrılıb. Maliyyə Nazirliyi bu Sərəncama əlavədə nəzərdə tutulmuş bölgüyə uyğun olaraq maliyyələşməni təmin etsməli, Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn digər məsələləri həll etməlidir. Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 27-də Gürcüstanın xarici işlər naziri İliya Darçiaşvilini qəbul edib.**

Dövlət başçısı ilk növbədə İliya Darçiaşvilini Gürcüstanın xarici işlər naziri vəzifəsinə təyin olunması münasibətilə təbrik edib, ona fəaliyyətində uğurlar arzulayıb.

Prezident İlham Əliyev ikitərəfli münasibətlərimizin ölkələrimizin və xalqlarımızın qarşılıqlı dəstəyinə, həmrəyliyinə əsaslandığını bildirib, əlaqələrimizin möhkəm təməllər üzərində qurulduğunu deyib. Dövlət başçısı ötən 30 il müddətində Azərbaycan ilə Gürcüstan arasında mövcud olan dostluq münasibətlərinin regional sabitlik və əməkdaşlıq işində mühüm amil olduğunu bildirib. İqtisadi sahədə əməkdaşlığa toxunan Azərbaycan Prezidenti xüsusilə nəqliyyat sferasında yeni imkanların olduğunu vurğulayıb.

Cənubi Qafqazın inkişafı ilə bağlı ölkələrimizin birgə baxışlarının olduğunu deyən Prezident İlham Əliyev xüsusilə postmünaqişə dövründə Azərbaycan, Gürcüstan və Ermənistan arasında üçlü formatda qarşılıqlı fəaliyyət üçün yaxşı imkanların olduğunu bildirib və Azərbaycan tərəfinin buna hazır olduğunu qeyd edib. Dövlət başçısı Gürcüstanın da bu mövqeyi bölüşdüyünü deyib, Ermənistanın da bunun regionda sabitliyin və təhlükəsizliyin bərqərar olmasının yeganə yolu olduğunu anlayacağına ümidvarlığını ifadə edib. İliya Darçiaşvili Gürcüstanın Baş naziri İrakli Qaribaşvilinin salamlarını və Gürcüstana səfər etməklə bağlı dəvətini Prezident İlham Əliyevə çatdırıb.

Dövlət başçısı salamlara və səfərə dəvətə görə minnətdarlığını bildirib, onun da salamlarını Gürcüstanın Baş nazirinə çatdırmağı xahiş edib.

Bakıda çox səmərəli görüşlər keçirdiyini bildirən İliya Darçiaşvili ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafına töhfə vermək üçün səylərini əsirgəməyəcini deyib. Qonaq Azərbaycan Prezidentinin əlaqələrimizin inkişafına verdiyi dəstəyi Gürcüstan tərəfinin yüksək qiymətləndirdiyini bildirib. Bu il ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd edildiyini deyən Gürcüstanın xarici işlər naziri əməkdaşlığın gələcəkdə də genişləndirilməsinin zəruriliyini vurğulayıb. Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# "Ermənistanla təmaslarımızın bəzi nəticələri var"

**"Azərbaycan və Gürcüstan arasında beynəlxalq çərçivədə də çox uğurlu əməkdaşlıq mövcuddur". Bunu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Gürcüstanın xarici işlər naziri İliya Darçiaşvili ilə birgə mətbuat brifinqində deyib.**

Nazir bildirib ki, bu koordinasiya gələcəkdə də davam etdiriləcək: "Bu gün görüşdə azad edilən ərazilərlə bağlı son bir il ərzində həyata keçirilmiş layihələr, onların mövcud durumu, yaxın illərə olan planlarımız, məcburi köçkünlərin ora qayıdışı ilə bağlı layihələr qarşı tərəfə çatdırıldı. Münaqişəyə son qoyulandan sonra bizim üçün prioritet məsələlərdən biri bölgədə davamlı sülhün təmin edilməsidir. Bununla bağlı da həmkarımla danışıqlar aparmaq imkanım oldu.

Artıq Ermənistan XİN-lə təmaslarımız nəticəsində bəzi nəticələrimiz var. Mənim artıq Ermənistanın xarici işlər naziri ilə 2 telefon danışığım olub. Sərhədlərin delimitasiyası və demarkasiyası ilə bağlı Komissiyanın fəaliyyətə başlaması üçün artıq şərait mövcuddur".

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET
Təsisçi və
baş redaktor:
Sevinc Seyidova
Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.
Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000
"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X
Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# Ermənistan bir xarici mərkəzdən idarə olunmur

**Brüsseldə sülh müqaviləsinin imzalanmasına yönəlik müsbət notlar siyasi-ictimai müzakirələrdə yer alsa da, hələ də ərazilərimizdə qalan erməni silahlıları Qarabağda "müstəqillikdən, statusdan" danışır və üçtərəfli sazişin əsas müddəalarının icrası ilə bağlı vasitəçi Rusiyanın sülhməramlıları tərəfindən heç bir hərəkətlilik görünmür. Paşinyanın Rusiya səfərindən sonra Ermənistanın Brüssel danışıqlarının üstündən açıq şəkildə xətt çəkdiyi, öhdəsinə düşən öhdəlikləri yerinə yetirməkdən yayındığı bir daha meydana çıxır. Milli Məclisin deputatı Elman Məmmədov hafta.az-a müsahibəsində son durumla bağlı mübahisəli məqamlara aydınlıq gətirib.**



**Elman Məmmədov,**
Milli Məclisin deputatı

## Müsahib

***- Elman müəllim, regionda sülh müqaviləsinin bağlanması istiqamətində Ermənistanın fikrini dəyişən və revanşist iddialarından əl çəkməməyə sövq edən səbəblər nədir? Silahı yerə qoymayan ermənilər Azərbaycanda sülh şəraitində birgə yaşayışa necə hazırlaşır?***

- Brüssel görüşündə səslənən fikirlər, verilən bəyanatlar ümidverici idi. Paşinyanın Moskva səfəri və orada Rusiya prezidenti ilə "pərdəarxası" görüşləri çox güman ki, verilən tapşırıqlardan sonra vəziyyət tamamilə dəyişdi və Paşinyan yenidən sərsəm bəyanatlar verməyə başladı. Ermənistanın başçısı separatçı çıxışlar edərək, "Artsax" dövləti, onun müqəddəratı, onun statusu, "Artsax" dövləti ilə razılaşmadan heç bir sənəd imzalamayacağıq" və sair bu cür sərsəm fikirlər səsləndirir. Bütün bunlar göstərir ki, bizim tarixi torpaqlarımızda yaradılmış bu qondarma dövlət öz müstəqil siyasətinə, sözünə, qərarına malik olmayıb, bu gün də o iqtidara malik deyil. Bəla burasındadır ki, bu dövlət bir xarici mərkəzdən idarə olunmur.

Bir mərkəz Qərbdir - Avropa və ABŞ, ikinci mühüm mərkəz Şimal qonşumuz Rusiyadır. Bu da təsadüfi bir məsələ deyil. Özlərini millət adlandıran bu toplumu dünyanın müxtəlif yerlərindən bizim tarixi torpaqlarımızda yerləşdirib bunlara dövlət yaradan və həmişə müdafiə edən dövlətlər, qüvvələr bu gün də həmin iddialardadır. Bu gün də öz yaramaz işlərini davam etdirirlər. Paşinyan kimi baş nazirin bir qulağı Qərbin əlindədir, bir qulağı da Şimalın əlindədir. Hansı bir az tez tərpənib bərk çəksə, bu, o tərəfə meyillənir. Axırıncı dəfə Putin Paşinyanın qulağını necə çəkibsə, çox ümidlə geri qayıdıb və artıq başqa fikirlər səsləndirir, sərsəmləyir.

Bizim başqa çıxış yolumuz qalmır. Cənab Prezident Dünya Azərbaycanlılarının 5-ci qurultayında Şuşa şəhərində bunlara çox ciddi mesaj verdi. Bu, ermənilərin son şanslarıdır deyib fikir səsləndirdi ki, əks təqdirdə biz də öz tədbirimizi görəcəyik. Biz də Ermənistan deyilən dövlətin ərazi bütövlüyünü tanımayacağıq və tarixi torpaqlarımıza iddia edəcəyik. İndi söhbət ermənilərin nazı ilə oynamaqdan getmir.

Dəmir Yumruq yenə də qüvvədədir. Azərbaycan ərazilərini separatçılardan, cinayətkarlardan, terrorçulardan, qeyri-qanuni silahlı birləşmələrdən təmizləmək üçün hərəkətə keçməlidir, keçəcəkdir. Ərazilərimiz bu zir-zibildən təmizlənməlidir.

Təbii ki, burada sülhməramlılıq missiyasını öhdəsinə götürən Rusiya dövlətinin xoşagəlməz mövqeyi qabarıq şəkildə özünü büruzə verir. Rusiya özünün bu bölgədəki mövqelərini zəiflətməmək, nüfuzunu və bu bölgədə təsir dairəsini qüvvədə saxlamaq üçün münaqişənin sönməsinə imkan vermir və verməyəcəkdir də. Eyni zamanda, Qərbin bu bölgədə təsirini zəiflətmək, Qərbin bölgədə söz sahibi olmasına mane olmaq onun qarşısına qoyduğu vəzifələrdən biridir. Belə görünür ki, Rusiya dövləti, hətta bu ilin 22 fevralında bizimlə imzaladığı Müttəfiqlik Haqqında sazişdən bir az da üstün sazişi bu dəfə Ermənistanla bağladı. Ermənilərə nə cür şirin vədlər veribsə, Paşinyan Moskvadan gələndən istədiyi hərəkəti edir. Bu da Rusiyanın fitvasından başqa bir şey deyil.

> *Ermənilərin Azərbaycana, türkə qarşı düşmənçiliklə yoğrulan irsi xəstəliyi var*

10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli sazişdə 4-cü və başqa bəndlərdə göstərilirdi ki, özünü sülhməramlı adlandıran Rusiya hərbi kontingenti Azərbaycan ərazisinə daxil olduğu gündən bütün qeyri-qanuni erməni silahlı birləşmələrini həmin ərazilərdən çıxarmalı idi. Bu bəndi həyata keçirmək üçün bu işlə məşğul oldumu, xeyr.

Əvəzində həmin silahlı birləşmələrin, separatçı quldurların, cinayətkarların orada daha da möhkəmlənməsinə şərait yaratmağa, onların təminatı, təchizatı, oradakı cinayətkarların müdafiəsi ilə məşğul olmağa başladı. Oradan çıxıb-qaçmış erməniləri geri qaytarıb onlara evlər, məktəblər, xəstəxana, bağça və sair tikintilər aparmaqla məşğul oldu. Bu, əvvəldən də ona işarə idi ki, Rusiya münaqişənin sönməsinə deyil, münaqişənin daim bölgədə qalması üçün çalışır.

***- Öz torpaqlarımızda qaçqın, köçkün kimi yaşayan Azərbaycan əhalisinin öz yurdlarına - Xocalıya, Xankəndinə və digər ərazilərimizə qaytarılması öhdəliyi, digər əsas məsələlər həllini tapmamış, artıq maraqlı qruplar Azərbaycan parlamentində Xankəndidəki ermənilərin təmsilçisi kimi erməni deputatının olub-olmamasının mümkünlüyü sualını önə çıxarıb. Bu nə vaxt reallasa bilər və nə dərəcədə doğrudur?***

- Xankəndi ermənisinin Milli Məclisə deputat seçilməsi ilə bağlı mövzunun ortaya qoyulması yanlışdır, səhvdir. İndi mən həmin bu fikirdə olanlara sual verirəm: Ermənistan dövləti tarixi Azərbaycan torpaqlarında yaradılıb. Bu tarixi torpaqların əsl sahibi olan azərbaycanlılardan bir nəfəri də olsun bu gün Ermənistanda yaşamır. Bu gün Ermənistanda azərbaycanlı yaşamırsa, niyə o zaman Azərbaycan torpaqlarında hansısa bir erməni yaşamalıdır və hətta parlamentində də təmsil olunmalıdır. Bunlar indiki zamanda xoşagəlməz, absurd, qəbulolunmaz fikirlərdir. Düzdür, cənab Prezidentimiz də həmişə bəyan edib ki, Qarabağda 1988-ci ilə qədər yaşamış erməniləri çıxartmırıq, qalıb yaşaya bilərlər. Bu bizim dövlət siyasətimizdir, deyirik. Mən bir vətəndaş kimi mövqeyimi bildirirəm ki, o vaxt bir neçə dəfə bizi deportasiya etməsəydilər, bəlkə bu gün Ermənistan deyilən dövlətdə bir neçə milyon azərbaycanlı yaşayardı. Bu gün orada bir nəfər də olsa azərbaycanlı yaşamırsa, Azərbaycanda niyə erməni qalıb yaşamalıdır, hətta parlamentdə oturmalıdır? Ermənilər düşmənçiliklərindən əl çəkmir. Yaşadıqları müddətdə də o problemi yaradacaqlar.

***- Bu mövzu Avropanın, Qərbin "qarşılıqlı etimad tədbirləri çərçivəsində" reallasa biləcəyi ehtimalı əsasında düşünülürsə, o zaman həmin xarici qurumlar bu etimad mühitinin necə yaranacağını, rus sülhməramlıları, yaxud separatci rejimin buna nə dərəcədə imkan yaradacağını düşünürlərmi? Bu məsələdə ikili standartlar varmı?***

- İndi biz "avropalı", "Avropa demokratiyası" çox deyirik. Avropanı götürüb bütövlükdə onun tarixinə baxanda nə oxuyuruq orada? Yəni Amerika qitəsini də, Afrikanı da, Asiyanı da vaxtilə işğal edib müstəmləkəyə çevirən, dünyanın müxtəlif yerlərində soyqırımlar törədənlər avropalılar deyildimi? İndi Bayden dedi ki, türklər ermənilərə qarşı soyqırımı törədiblər. Bayden də avropalıdır. Dədəsi, babası Amerikanın yerli əhalisinə qarşı soyqırımı törətdilər. Soyqırımı faktlarını bunlar tarixə yazıblar. Yəni Avropanın dedikləri bizim üçün etalon deyil, bizim üçün məcburi bir icra mexanizmi deyil. Bizim öz qanunlarımız var. Otuz il ərzində bu ərazilərimiz erməni işğalı altında olubsa, orada hansı abidəni dağıda bilərdik? Bəs bizim dağıdılmış məscidlərimizi, müqəddəs yerlərimizi, qəbiristanlıqlarımızı, tarixi abidələrimizi kimlər viran qoyub? Qoy avropalı yaxşı baxsın və qiymət versin.

Əgər reallığı, tarixi faktları olduğu kimi qəbul edib, başa düşmək istəmirlərsə, bu öz problemləridir. Onları qandırmaq üçün daha çox dəridən-qabıqdan çıxmalı deyilik. Biz öz tədbirlərimizi görməliyik.

Hesab edirəm, bu, qarşılıqlı etimad heç vaxt yaranmayacaq. Ermənilərin Azərbaycana, türkə qarşı düşmənçiliklə yoğrulan irsi xəstəliyi var. Bu xəstəliyə düçar olanlarla heç vaxt qarşılıqlı etimad mühitindən danışmaq olmaz. Bu yaxınlarda gördünüz, Yerevanın mərkəzində Türkiyə, Azərbaycan bayraqlarını necə yandırdılar. Hansı şüarlar səsləndirilirdi. Belə olan halda hansı qarşılıqlı etimaddan danışmaq olar? Belə fikirləşənlər bizi bilirsiniz nəyə döndərirlər: deyir, elə mən səni sevəcəm, sən sevməsən də Belə olmur axı, sevgi, etimad da qarşılıqlı olmalıdır. Biz sülh, barış istəyirik və bunu elan edib, Ermənistanı sülh sazişi bağlamağa dəvət edirik. Qarşı tərəf səninlə sülhə, barışa gəlirmi? Öz işğalçı mövqeyindən əl çəkirmi? Xeyr!

***- Qeyd etdiniz ki, ABŞ Prezidenti Co Bayden ermənilərin soyqırımına məruz qoyulduğunu dilə gətirdi Bu, nəyin göstəricisidir?***

- Əvvəla, erməni soyqırımı olmayıb. Ermənilər Türkiyədə, Anadoluda və Cənubi Qafqazda azərbaycanlılara, türklərə qarşı soyqırımlar törədiblər. Ermənilərə qarşı olan soyqırımı məsələsini də siyasət dəllalları, həmin o ermənilərə havadarlıq edən xarici dövlətlər özlərinin işinə yarıyan bir alət kimi yaradıblar və istifadə edirlər.

Soyqırımı faktını görüb, soyqırımını tanımaq istəyirlərsə, Xocalı soyqırımı ilə tanış olsunlar. Xocalıda soyqırımına məruz qalan xocalılılar hələ sağdırlar, yaşayırlar. Bütün sənədlər var, şahidlər var. Dünya "o kitab-dəftər"də yazılan kimi, haqq-ədalətlə, beynəlxalq hüquqla və qayda-qanunlarla idarə olunmur. Dünya riyakarlıqla, saxtakarlıqla, qeyri-səmimiliklə, ədalətsizliklə və güczorla idarə olunur. Bunun bariz nümunəsini Rusiya-Ukrayna müharibəsində görürük. Bütün başqa məsələlərə də bu prizmadan yanaşılır.

✍ ***Tahirə***

# ABŞ səfirlərinin Bakı toplantısı

**Xəbər verildiyi kimi, 27-28 aprel tarixlərində Bakıda ABŞ-ın diplomatik missiya rəhbərlərinin növbəti toplantısı keçirilir. ABŞ-ın Azərbaycandakı səfirliyindən verilən məlumata görə, ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin müavini Erika Olson da bununla bağlı Azərbaycana səfərə gəlib. Sözügedən konfransda ABŞ-ın Azərbaycandakı səfiri Erl Litzenberqer, Gürcüstandakı səfir Kelli Deqnan ilə yanaşı, ABŞ-ın Ermənistandakı səfiri Linn Treysi də iştirak edəcək.**

ABŞ-ın Ermənistandakı səfiri xüsusən Qarabağdakı 44 günlük müzəffər savaşımızdan sonra Azərbaycana qarşı qərəzli mövqeyi ilə tanınır. Səfir bir neçə dəfə "Dağlıq Qarabağın statusu məsələsinin həll olunduğunu hesab etmirik", "Münaqişə Minsk Qrupu çərçivəsində həll olunmalıdır" və s. deyərək ermənipərəst mövqe ortaya qoyub. Xanım diplomat hətta Ermənistan-Azərbaycan sərhədinə gələrək erməni hərbçilərlə sanki onları ruhlandırmaq məqsədli görüşlər keçirib. Təbii ki, rəsmi Bakı Amerika səfirnin bu mövqeyini qəbuledilməz hesab edib. Bəs görəsən, ABŞ-ın hələ də Azərbaycanın ərazi bütövlüyünü tanımayan qəsbkar ölkədəki səfiri Bakıya gəlməsindən istifadə edərək Vaşinqtonun Ermənistandakı maraqları baxımından ölkəmizin hansısa yüksək ranqlı rəsmi şəxsi ilə görüşməyə cəhd edə bilərmi?..

■ **Azərbaycanın sabiq baş diplomatı Tofiq Zülfqarov mövzu ilə bağlı hafta.az-ın sualını belə cavablandırıb: "Öncə onu deyim ki, ABŞ-ın bu və ya digər ölkədəki səfirini həmin ölkəyə işləyən adam kimi qəbul etmək olmaz. Yəni bu mənada Ağ evin Ermənistandakı elçisinə Bakıda düşmən kimi baxmaq doğru deyil. Amerika səfirlərinin mütəmadi olaraq belə görüşlərinin olması da normaldır.**

Özü də onlar yalnız Cənubi Qafqazda deyil, digər regionlarda da bu cür görüşlər təşkil edirlər. Ötən illər mən də ABŞ səfirlərinin bir neçə şəhərdəki toplantısına dəvət almışam və siyasi ekspert kimi həmin tədbirlərdə məruzə ilə çıxış etmişəm.

Məsələn, bir dəfə Amerikanın İsveçrə səfirliyi belə bir görüş təşkil etmişdi. Həmin konfransın əhatəsi xeyli böyük idi; tədbirə Azərbaycanla yanaşı, Rusiya və Orta Asiya ölkələrindəki səfirlər də qatılmışdılar.

Təxminən, eyni şəkildə ABŞ-ın müxtəlif ölkələrdəki hərbi attaşeləri də toplanır. Böyük Britaniyada belə bir toplantıda da iştirak etmişəm". "Bəs belə bir praktika varmı ki, ABŞ-ın Gürcüstan və yaxud Rusiyadakı səfirinin Bakıdakı hansısa tədbirdə iştirakı çərçivəsində Azərbaycan Prezidenti, yaxud xarici işlər naziri tərəfindən ayrıca qəbulu təşkil edilə?"



**Tofiq Zülfqarov,**
Azərbaycanın sabiq baş diplomatı

sualını isə politoloq bu cür cavablandırıb.

"Xeyr, doğrusu, belə bir praktikanı xatırlamıram. Amma səfirlərin toplantısında iştirak edənlərin tədbirin keçirildiyi ölkənin hansısa ranqlı məmuru tərəfindən birgə qəbul edilməsi istisna olunmur. Onlar ictimaiyyəti təmsil edən mütəxəssislərlə görüşürlərsə, onların, tutaq ki, Azərbaycan Xarici İşlər Nazirliyinin hansısa idarə rəisi, yaxud nazir müavini, bəlkə də nazirin özü tərəfindən qəbulunu da istisna etmirəm. Azərbaycan Prezidentinin köməkçisinin də həmin səfirləri qəbul etməsi mümkündür. Bunlar konkret məqam və situasiyadan asılıdır.

Ölkə prezidentlərinin toplantı keçirən ABŞ diplomatlarını qəbul etməsi halı isə yadıma düşmür. Bu da istisna olunmur. Əgər hansısa mesaj çatdırılması, hansısa vacib məsələdə dövlətin mövqeyinin bildirilməsi zəruridirsə, tədbir keçirilən ölkənin lideri də Amerika səfirlərini qəbul edə bilər.

Məsələ ondadır ki, belə toplantılardan sonra hər bir səfir hesabat yazır, həmin hesabata ABŞ-ın müvafiq qurumu tərəfindən diqqətlə baxılır və müvafiq nəticələr çıxarılır", - deyə keçmiş xarici işlər naziri vurğulayıb.

✍ ***Sultan Laçın***

# Azərbaycan diasporu qarşısında dayanan yeni hədəflər

***Şuşada təşkil edilən Dünya Azərbaycanlılarının V Qurultayı həm özünün məkanı, həm adı, həm də qarşıya qoyulan vəzifələr baxımından dövlətimizin beynəlxalq arenadakı fəaliyyətində müstəsna rola malikdir. Qurultayda Prezident İlham Əliyevin səsləndirdiyi fikirlər, əsaslandırılmış arqumentlər və soydaşlarımıza çağırışları diaspor təşkilatlarımızın postmünaqişə dövründəki fəaliyyətinin əsas «Yol Xəritəsi»ni təşkil edəcək.***



## Təhlil

Qeyd edək ki, Zəfər Qurultayına aparan yolun istiqamətverici ideyasının müəllifi ümummilli lider Heydər Əliyevdir. Keçən əsrin 90-cı illərində Azərbaycanın beynəlxalq səviyyədə üzləşdiyi çətinliklərin aradan qaldırılması, dünyanın hər yerinə səpələnən soydaşlarımızın vahid dövlətçilik və milli maraqlar ətrafında birləşməsinin nə dərəcədə zəruri olduğunu gözəl anlayan Heydər Əliyevin təşəbbüsü ilə 2001-ci ildə dünya azərbaycanlılarının birinci qurultayı keçirildi. Hələ həmin dövrdə Ulu Öndər dünya azərbaycanlıları qarşısında çıxış edərək Azərbaycanın öz ərazi bütövlüyünü bərpa edəcəyini, torpaqlarımızın işğaldan azad olunacağını və xalqın öz torpaqlarına qayıdacağını bildirmişdi. 44 günlük Vətən müharibəsində əldə edilən Zəfərə qədər xaricdəki soydaşlarımız da məhz Ulu Öndərin açıqladığı bu hədəflərin reallaşması üçün səylə çalışdılar. Qarşıya qoyulan məqsədlərə çatmaq istiqamətində fəaliyyətin yeni mərhələsi isə Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin adı ilə bağlıdır.

Ümumilikdə götürdükdə diasporumuzun fəaliyyətini iki dövrə bölmək mümkündür - münaqişə və postmünaqişə dövrü. Münaqişə dövrü arxada qalıb. Buraxılan səhvlər, əldə edilən uğurlar, gözdən qaçan məqamlar ciddi təhlil edilərək postmünaqişə dövrü üçün yeni hədəflər və strategiyalar hazırlanmalıdır. Bu baxımdan, Şuşada təşkil olunan Zəfər Qurultayı müstəsna rola malikdir. Prezident İlham Əliyevin qurultay üçün Şuşanı məkan olaraq seçməsi də əslində çox düzgün və düşünülmüş qərar idi. Fikir verin, diaspor təmsilçilərimiz Şuşaya Zəfər yolu ilə getdilər. Hansı ki, onun ilk cığırlarını qanları, canları ilə Şuşanı azad edən qəhrəman əsgərlərimiz açmışdılar. Ətrafdakı azad edilmiş ərazilərdəki vəziyyəti, Şuşanın dağıdılmış halını diaspor təmsilçilərimiz öz gözləri ilə gördülər. Həm də bu dağıntıların aradan qaldırılması istiqamətində aparılan işlərin miqyası onlarda bir daha Azərbaycanın iqtisadi potensialı, gücü barədə real təsəvvür yaratdı.

Prezident bu qərarı ilə dünya azərbaycanlılarına üstüörtülü də olsa mühüm bir mesaj verdi. Əldə edilmiş qələbə Azərbaycan dövlətinin təkbaşına apardığı düzgün hədəflərə istiqamətlənmiş siyasətinin nəticəsidir. İndi də, işğalın nəticələrini dövlətimiz heç bir yardım almadan, öz iqtisadi potensialı, maliyyə imkanları, ehtiyatları hesabına aradan qaldırır. Artıq daşın altına hamının əlini qoyması vaxtıdır. Yeni hədəflərə, yeni məqsədlərə çatmaq üçün bir olmaq zamanıdır. Bəs yeni hədəflər nədir?

**Bu sualın cavabını verməzdən əvvəl Zəfərdən sonra dövlətimizin əldə etdiyi nəticələrə nəzər salaq:**

*- Azərbaycan bölgədə milli və dövlətçilik maraqlarımıza uyğun yeni reallıqlar yaratdı.*

*- Aparıcı beynəlxalq təşkilatları postmüharibə reallıqlarını qəbul edirlər. Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı və s. beynəlxalq platformaların son qətnamələrində bu reallıqların qəbul edildiyi açıq şəkildə bəyan edilir. Eləcə də Prezident İlham Əliyevə ayrı-ayrı dövlət başçılarının ünvanladıqları məktublarda da bu tendensiya müşahidə edilir.*

*- Şuşanın qədim Azərbaycan şəhəri olduğu artıq qəbul edilir. Erməni lobbisi, İrəvan və Xankəndidəki separatçı qalıqlarının ciddi etirazlarına baxmayaraq, dünyanın ən böyük təşkilatı BMT-nin Şuşada beynəlxalq tədbir keçirməsi buna sübutdur.*

*- Azərbaycan rəsmi şəkildə «Dağlıq Qarabağ münaqişəsi» adlı problemin, artıq qalmadığını, ölkəmizin bu məsələni hərbi-siyasi yolla həll etdiyini bəyan edib. İndi həlli vacib olan başlıca məsələnin Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması olduğunu açıqlayıb. İrəvana gələcək sülhün təməlini təşkil edəcək beynəlxalq hüquqa əsaslanan 5 prinsip təklif edib. Bu reallıq da dünya birliyi tərəfindən qəbul edilib. Avropa İttifaqı hazırda Azərbaycan-Ermənistan arasında normallaşma prosesində çox fəal iştirak edir.*

*- Rəsmi Bakı Zəfərdən dərhal sonra 30 ilə yaxın müddətdə heç bir real nəticəyə nail olmayan ATƏT-in Minsk Qrupuna artıq ehtiyac qalmadığı bəyan etdi. ATƏT-in Minsk qrupu yoxdur. Keçmiş həmsədr dövlətlər özləri də bunu etiraf edirlər.*

*- Azərbaycan bölgədə yeni regional əməkdaşlıq platformasının əsasını qoydu. «3+3» adlandırılan bu format daxilində regional ölkələrin əməkdaşlıq imkanlarının genişləndirilməsi ciddi müzakirə mövzusudur...*

Bu siyahını uzatmaq da mümkündür. Bir məqam xüsusi vurğulanmalıdır ki, dövlət olaraq təkliklə əldə etdiklərimizin əsas memarı Prezident İlham Əliyev və onun siyasi kursudur.

**Lakin postmünaqişə dövründə qazandıqlarımızı qorumaqla yanaşı, həllinə ciddi dəstək verilməsini tələb edən problemlərimiz də az deyil. Onlara nəzər yetirək:**

*- Mövcud reallığın ermənilərin xeyrinə dəyişdirilməsi üçün dünyadakı erməni lobbisi və onun dəstəklədiyi qüvvələrin var gücləri ilə çalışması.*

*- İşğaldan azad edilən ərazilərin bərpası.*

*- Mina problemi.*

*- Bölgənin tarixinin ermənilər tərəfindən saxtalaşdırılması faktlarına qarşı mübarizə.*

*- Azad edilmiş ərazilərdə ermənilər tərəfindən dağıdılan maddi-mədəni irsimizin dünyaya çatdırılması*

*- Xocalı, Başlıbel, Ğart və s. soyqırımlarının dünyada təbliği...*

*Bütün bu qeyd olunanlar artıq Zəfər Qurultayının çağırılması və dünya azərbaycanlılarını qarşısında yeni vəzifələr qoyulmasını zərurətə çevirmişdi. Prezident İlham Əliyev Qurultaydakı çıxışı zamanı bu vəzifələri sadaladı. Onları ümumi şəkildə aşağıdakı kimi qruplaşdıra bilərik:*

*- Diaspor təşkilatları, fəallar yeni reallıqları dünya ictimaiyyətinə çatdırmalıdırlar. Xaricdə yaşayan azərbaycanlıların bu sahədə imkanları daha genişdir. Azərbaycanlılar yaşadıqları ölkələrin ictimaiyyətini maarifləndirməli, Qarabağın, Zəngəzurun tarixini, Kürəkçay, Gülüstan, Türkmənçay sülh müqavilələrinin mahiyyətini, Dağlıq Qarabağ Muxtar Vilayətinin yaranması, 1940-1950-ci illərdə azərbaycanlıların Ermənistandan kütləvi deportasiyası barədə həqiqətləri, Azərbaycan reallıqlarını, postmünaqişə dövrünün gerçəkliklərini onlara çatdırmalıdırlar.*

*- Bu gün erməni lobbisi tərəfindən Azərbaycanın sülh arayışlarına kölgə salmaq üçün ölkəmizə «təcavüzkar» damğasının vurulmasına səy göstərilir. Bu məqsədlə diaspor fəallarımız yaşadıqları ölkələrin siyasi dairələri ilə təmasları genişləndirməli, onlara rəsmi Bakının irəli sürdüyü 5 prinsipdən ibarət sülh təklifi ilə bağlı ətraflı məlumat verməlidirlər.*

*- Müharibə başa çatsa da, Azərbaycana qarşı olan ərazi iddiaları hələ ki, başa çatmayıb. Bunu Ermənistandakı revanşist qüvvələrin son çıxışlarında açıq şəkildə görürük. Bu səbəbdən diaspor qurumlarımız daha fəal olmalı, ermənilərin xalqımıza qarşı törətdikləri soyqırımları haqqında mütəmadi təbliğat işləri aparmalıdırlar. Ermənistanın mina xəritələrini qəsdən səhv verərək yüzlərlə soydaşımızın yaralanması və həyatını itirməsinə səbəb olan addımlarının beynəlxalq cinayət olduğu hər kəsin diqqətinə çatdırılmalıdır.*

*- İşğaldan azad edilmiş ərazilərimizdəki mövcud dağıntılar, təbii sərvətlərimizin talan edilməsi, ekoloji terror və s. bu kimi əməllərə görə Azərbaycan dövləti Ermənistanı beynəlxalq məhkəməyə verməyə hazırlaşır. Diaspor qurumlarının bu məsələdə üzərinə xüsusi vəzifələr düşür.*

*- İşğaldan azad edilmiş ərazilərimizin bərpasında xaricdə yaşayan imkanlı iş adamlarımızın yardımları, buraya investisiya yatırması, xarici iş adamlarının Azərbaycana sərmayə qoyuluşunu genişləndirməsi üçün ölkəmiz haqqında reallığa əsaslanan müsbət imicin formalaşdırılması işində də diaspor qurumlarımız fəallıq nümayiş etdirməlidir.*

*- Sadalanan vəzifələrin reallaşdırılmasının başlıca şərti olaraq öz aralarındakı fikir ayrılıqlarının milli məsələlərlə bağlı mövzulara ikinci plana keçirilməsi.*

Azərbaycan dövlətinin bu gün diaspor qurumlarımızın 44 günlük Vətən Müharibəsində sərgilədiyi birliyə, həmrəyliyə ehtiyacı var. Dünyada yaşanan gərgin geosiyasi, beynəlxalq çaxnaşmalar, kataklizmlər fonunda «Prezident-Dövlət-Xalq-Diaspora» düsturu çərçivəsində formalaşdıracağımız vahid güc üzləşə biləcəyimiz çağırışlar və təhdidləri asanlıqla dəf etməyə imkan verəcək. Qələbəmizin rəmzi olan Şuşadan yola çıxaraq diaspor fəaliyyətinin yeni mərhələyə qədəm qoyduğunu söyləyə bilərik.

✍ *Azad Əliyev*

---

Ramazan

**Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini Hacı Fuad Nurullayevlə hafta.az üçün bu dəfəki söhbətimizdə Ramazan bayramı ərəfəsində müsəlmanlar üçün vacib ayinlərdən biri olan fitrə zəkatının məbləğinin adambaşı müəyyən olunması qaydaları, fitrə pulunun ailə üzvlərindən savayı kimlərin adından çıxarıla bilməsi, kimlərə və hansı vaxtlarda verilməsinin bəzi incəlikləri haqqında, həmçinin işğaldan azad torpaqlarımızda bəhs edilən müqəddəs bayramla bağlı gözlənilən tədbirlər barədə danışdıq.**



**Hacı Fuad Nurullayev,**
Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini

# Ramazanın son vacib ayini

***- Hacı, öncədən Ramazan Bayramınızı təbrik edirik. Zəhmət olmasa, fitrə zəkatının hansı əsaslarla hesabalndığını izah edərdiniz. Adətən, din alimləri buyurur ki, ən azı, adambaşına 3 kq buğdanın dəyəri qədər fitrə pulu çıxarılmalıdır. Buğdanın bir kilosunun qiyməti isə maksimum 70-80 qəpikdir. Qafqaz Müsəlmanları İdarəsi builki Ramazan ayı üçün fitrə zəkatını 10-15 manat olmasını tövsiyə edib. Yəni belə olan halda, qazancı zəif olan bir çox mömin fitrə pulu verməkdə çətinlik çəkir...***

- Doğrudur, minimum fitrə zəkatı gündəlik istifadə olunan ərzağa uyğun hesablanmalıdır. Məsələn, buğda, düyü, Ramazanda çox istifadə edilən xurma... Sadəcə, insan öz maddi imkanına obyektiv baxmalıdır ki, fitrəni buğdadan, düyüdən, yaxud xurmadan çıxarsın. Fitrə zəkatı ailədə adambaşına belə məhsullardan birinin 3 kiloqramının dəyərinə uyğun hesablanmalıdır. Məsələn, mənim 3 kq düyüyə uyğun fitrə vermək imkanım varsa, normal düyünün bir kiloqramını 5 manatdan hesablasaq, adambaşına 15 manatdan fitrə verməliyəm. Elə xurmanı da götürsək, onun da kilosu təxminən 4-5 manatdır... Bu baxımdan, Qafqaz Müsəlmanları İdarəsi öz fətvasında məsləhət bilir ki, fitrə zəkatı adambaşına minimum 10 manatdan başlayaraq 15 manat və daha yüksək məbləğdə hesablana bilər. Elə 3 kq buğdadan da hesablamaq istəsək, buğdanı biz daim olduğu kimi bişirib yemirik ki, çörək, un məmulatı halında yeyirik. Odur ki, 1 kq buğdanın çörək halına gəlməsini nəzərə alsaq, onun da kilosunun qiyməti 1 manatı ötəcək. Hazırda yarım kiloqramlıq normal çörəyin qiyməti 70-80 qəpikdir. Bunun da 3 kilosunun qiymətini hesablasan, 6 manatı ötəcək. Bu baxımdan elə fitrə zəkatını buğda ilə də hesablasaq, adambaşına, azı 10-15 manat edər...

***- Bəs imkanı zəif olan möminlər fitrə zəkatını, məsələn, adambaşına 3 manatdan çıxara bilər?***

- Mən manatla demirəm. Üç kiloqram ən çox istifadə etdiyi ərzağın qiymətini hesablayıb çıxara bilər. İmkanı zəif olan, ailəsini zorla dolandıran insanların isə fitrə zəkatı verməsi vacib deyil...

Əgər Ramazan boyu oruc tutan kasıb şəxsin qəlbindən özündən daha da yoxsul bir şəxsə fitrə zəkatı vermək üreyindən keçirsə, o, fitrə pulunu adambaşına birbaşa 3 kilo buğdanın hesabı ilə də çıxara bilər... Yaxşı olar ki, həmin buğdanı, yaxud düyünü, yaxud xurmanı pul şəklində versinlər. Tutaq ki, bir yoxsul ailəyə biri 10 kilo buğda, yaxud düyü verdi, o biri 15-20 kilo verdi. Bu minvalla həmin ailənin evinə 50-60 kiloqram buğda, yaxud düyü toplana bilər. Ailə üzvlərinin bu qədər məhsulu birdənbirə tükətməsi mümkün deyil, başqa yeyəcəklərə, ətə, yağa, şəkərə və s., yaxud övladları üçün geyimə, məktəb ləvazimatına ehtiyacları var. Odur ki, o ailə başçısı məcburdur, bayram günləri həmin buğdanın, düyünün xeyli hissəsini satmaq üçün alıcı axtara. Bu baxımdan biz fitrəni adətən məhsul yox, pul şəklində verməyi məsləhət görürük. Məsələn, biz evimizdə 6 nəfərik, mən şəxsən adambaşına 10 manatdan cəmi 60 manat fitrə pulu çıxarmağı nəzərdə tutmuşam. Ola bilər, bayramadək imkanım olsa, çalışacağam 15-20 manatdan çıxarım. Həmin məbləği də rayonda həddən yoxsul olan bir ailə üçün nəzərdə tutmuşam. Odur ki, mən fitrə zəkatını çıxarandan sonra həmin məbləği rayondakı bacıoğlumun kartına yükləyirəm, o da həmin pulu çıxarıb dediyim şəxsə çatdırır...

***- Öz evləri olmayan, kirayədə, yaxud yataqxanada yaşayan, amma yemək-içməyini normal şəkildə təmin edə bilən ailələr fitrə pulu verməlidirlərmi?***

- Bəli, əlbəttə. Bir şəxs evsiz olsa, kirayədə, yataqxanada qalsa da, fitrə zəkatı verməyə imkanı çatırsa, bunu verməlidir. Bu, böyük bir məbləğ deyil axı... Söhbət 5-10 min manatdan getmir ki, onu başqasına versən, gələcəkdə ev almaq imkanından məhrum olarsan.

Məsələn, ailədə 3 nəfər adam varsa, adambaşı 10 manatdan verilsə, cəmi 30 manat edir. Bunu da ildə bir dəfə vermək ayda 500-600 manat maaş alan insan üçün böyük məbləğ deyil. Əvəzində 30 manat verib bir yoxsulu, bir yetimi sevindirə bilər. Onun süfrəsində bayram günü bir ət xörəyi olar, yaxud o, övladına bir paltar, bir ayaqqabı alar...

***- Fitrə zəkatının verilməsinin daha hansı incəlikləri var? Məsələn, fitrə pulu çıxarılmalı ailənin üzvləri arasında yaş həddi nəzərə alınırmı, həddi-büluğa çatma vacibdirmi?***

- Xeyr, yaş həddi nəzərə alınmır. Əgər Fitr, yəni Ramazan bayramı öncəsi günün şam namazından öncə ailədə yeni körpə dünyaya gələrsə, onun da adına fitrə zəkatı verilməlidir. Onu da qeyd edim ki, fitrə pulu bayram ərəfəsi şam azanınadək çıxarılmalıdır...

> *Bir şəxs kirayədə qalsa da, fitrə zəkatı verməyə imkanı çatırsa, bunu verməlidir*

> *Əgər qonaq evə bayramöncəsi gündə şam namazınadək gəlib gecə qalacaqsa, onun adına da fitrə pulu çıxarılmalıdır*

> *Tanımadığınız və əslində ehtiyacı olmayan adamlara fitrə zəkatı vermək olmaz*

***- Evə gələn qonaqlar üçün hansı halda fitrə verilir?***

- Əgər qonaq evə bayramöncəsi gündə şam namazınadək gəlib gecə qalacaqsa, onun adına da fitrə pulu çıxarılmalıdır. Ailə üzvlərindən hansısa biri evdən uzaqdadırsa, məsələn, hərbi xidmətdədirsə, başqa şəhərdə təhsil alırsa, onlar üçün fitrə zəkatı çıxarılması vacib deyil. Ancaq kimsə istəsə, buna imkanı olsa, çıxarması savab olar... Dediyim kimi, şam namazınadək evə kimsə gəlibsə, saylarından asılı olmayaraq ev sahibinin boynunda haqdır ki, onlardan ötrü də fitrə pulu çıxarsın. Qonaq şam azanından öncə çıxıb getsə, onun adına fitrə verilməsinə ehtiyac yoxdur...

***- Fitrə pulunun verilməsinin düzgün vaxtları hansılardır?***

- Hər bir müsəlman fitrə zəkatını bayram namazınadək ünvanına çatdırmağa çalışmalıdır. Buna da çatdırmasa, zöhr, yəni günorta namazınadək mütləq fitrə pulunu verməlidir. Birdən istisna hallar ola bilər. Məsələn, yaşadığın məntəqədə yox, başqa kənd, yaxud şəhərdə tanıdığın imkansız, kimsəsiz şəxs, uzaq qohum varsa, ona fitrə pulunu zöhr namazınadək çatdırıb göndərə bilmirsənsə, şam namazınadək, yaxud ertəsi gün də göndərə bilərsən... Digər istisna məsələ var ki, ona da insanlar diqqət yetirsin. Peşəkar, fırıldaqçı dilənçilər fitrə verilməli gün qapı-qapı gəzirlər və özlərini yoxsul, imkansız adam kimi təqdim edərək müxtəlif insanların fitrə pullarını yığmaq istəyirlər.

Belə tanımadığınız və əslində ehtiyacı olmayan adamlara fitrə zəkatı vermək olmaz. Kimsə Ramazan bayramı ərəfəsində qapını döyüb kömək istəsə, yaxud desə ki, fitrə pulu yığıram, ona kömək niyyəti ilə nəsə verə bilərsən. Ancaq bu, artıq fitrə pulu sayılmır. Fitrə zəkatı çıxarmaq vacibdir. Amma vacibdən də vacib həmin məbləği, yaxud əşyanı, məhsulu haqq sahibinə, yəni öncədən tanıdığın, gerçəkdən ehtiyac sahibi olan şəxsə çatdırmaqdır...

***- Bayram namazı ilə bağlı hansı yeniliklər var?***

- Bayram namazı haqda da idarəmiz tərəfindən məlumat verilib. Artıq bildiyiniz kimi, pandemiya ilə bağlı qadağaların çoxu aradan qaldırılıb. Odur ki, pandemiyadan əvvəlki illərdə olduğu kimi, hər bir mömin öz yaşadığı əraziyə yaxın məscidlərdə, yaxud ürəyi istədiyi digər məscidlərdə bayram namazını qıla bilər. Bayram namazı da saat səhər saat 9-10 arasında qılınacaq.

***- Hər kəsin toplum şəklində namaza qatılması vacibdirmi?***

- Bu, vacibat deyil. Əgər insanın istəyi varsa, bayram namazının məscidlərdə toplum şəklində qılınması daha savabdır. Amma dinimizdə bayram namazının tək-tək qılınması bəyənilmir. Ola bilər ki, ailə bir yerə yığışsın, ata, yaxud qardaşın rəhbərliyi ilə ailə üzvləri birlikdə namaz qılsın. Dinimizdə o da buyurulur ki, qadınların məscidi onların evləridir. Amma yaşlı, orta yaşı keçmiş qadınlar istisnadır ki, onlar yaxınlıqdakı məscidlərdə bayram namazlarında qadınlara uyğun şəkildə iştirak edə bilərlər...

Əslində bayram namazları açıq səma altında qılınsa, daha gözəldir. Bizim məscidlərimizdə belə şərait olmadığından biz hələlik bayram namazlarını qapalı məkanlarda təşkil edirik.

***- Hacı, işğaldan azad edilmiş torpaqlarımızda Ramazan bayramı tədbirləri necə keçiriləcək?***

- Ümidavarıq ki, işğaldan azad torpaqlarımızda bayram tədbirləri lazımi qaydada keçiriləcək. İstər Ağdam, istərsə də Şuşa məscidində bayram namazları qılınacaq. Həmin bölgələrdə səlahiyyətli qazilərimiz var. Məsələn, Ağdamda da, Şuşada da tikinti, bəpa işləriylə məşğul olan insanlarımız arasında ibadət edən, oruc tutanlar var. Onların ibadəti üçün yetərli şərait yaradılıb...

Allah cəmi müsəlmanların, o cümlədən Azərbaycan xalqının Ramazan bayramını mübarək etsin, namaz, oruc və dualarını qəbul etsin!..

✍ *Sultan Laçın*

# Vətəndaş cəmiyyəti institutları

## Layihə

***Bu gün Azərbaycan demokratik inkişaf yolunda uğurla addımlayır. Ölkəmizdə bu istiqamətdə davamlı olaraq islahatlar aparılır və demokratiyanın başlıca atributları olan vətəndaş cəmiyyəti, hüquqi dövlətin mütləq komponentlərinin təşəkkül tapması məsələsi əsas prioritetlər sırasındadır. Məlumat üçün bildirək ki, vətəndaş cəmiyyəti - cəmiyyətin inkişafının müəyyən pilləsində formalaşan insanların birliyi olub özündə bu cəmiyyətin siyasi, sosial, iqtisadi, mədəni sferalarında könüllü yaranan qeyri-dövlət strukturlarını birləşdirir. Vətəndaş cəmiyyəti haqqında təsəvvürlər uzun tarixi təkamül yolu keçib.***



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu

Azərbaycanda da bu institutun formalaşması, təşəkkül tapması asan olmayıb. Belə ki, ölkəmiz müstəqillik əldə etdikdən sonra vətəndaş cəmiyyətinin əsasını təşkil edən qeyri-hökumət təşkilatları (QHT) yaranmağa başlasa da, ilk illər ciddi çətinliklər mövcud olub. Və yalnız Ulu öndər Heydər Əliyev 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə gəldikdən sonra bu sektora münasibət müsbət istiqamətə dəyişməyə başladı. Onun tarixi mübarizəsi öz məntiqi və hüquqi nəticəsini 1995-ci ildə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyasında tapdı. Bu konstitusiya dövlətçiliyimiz və həm də vətəndaş cəmiyyətimiz üçün mühüm tarixi sənəd oldu. Keçmiş bütün sənədlərdə yalnız məhdud və ideoloji çərçivədə olan birləşmək hüququ var idi.

Bu hüququn təminatı belə yox idi. 1995-ci il konstitusiyasının 58-ci maddəsindəki birləşmək hüququ, onun preambulasındakı milli niyyətlərdən üçüncüsü olan "vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq" artıq müstəqilliyin verdiyi böyük imkanın hüquqi ifadəsi idi. Əslində, müasir və beynəlxalq standartlara uyğun olaraq yaranmış və fəaliyyət göstərən QHT-lər, məhz 1995-ci il konstitusiyasının qəbulundan sonra yaranmağa başlamışdı. Əlbəttə ki, müstəqilliyin ilk illərində ictimai birliklərin dövlət qeydiyyatına alınması bu dövrdə vətəndaş cəmiyyəti təsisatlarının sürətli inkişaf etdiyindən bəhs etməyə əsas vermir. Amma 1995-ci il Azərbaycan Respublikası Konstitusiyasının preambulasındakı milli niyyətlərdən üçüncüsü olan "vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq" artıq dövlət müstəqilliyinin verdiyi böyük imkanın hüquqi ifadəsi idi.

### Dövlət ən böyük donor rolunda

■ **Məhz Heydər Əliyevin əsasını qoyduğu müasir Azərbaycan dövlətinin ayrılmaz bir parçası olan QHT sistemi bu günümüzdə də inkişaf etməkdə, fəaliyyətini daha da genişləndirməkdədir.**

QHT-lərin inkişafı istiqmətində Ulu Öndər Heydər Əliyev tərəfindən atılan mühüm addımlar bu gün də Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu gün Azərbaycan dövləti vətəndaş cəmiyyəti təsisatları üçün həm də ən böyük donor rolunda çıxış edir. Bu məqsədlə ictimai sektorun yaxından iştirakı ilə formalaşdırılmış Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi mühüm addımlar atır. Hazırda ölkəmizdə vətəndaş cəmiyyəti ilə dövlət arasındakı münasibət aşağıdakı əsas prinsiplərə əsaslanır:

*"Məcburi köçkünlərlə işin aparılması və bütün mənalarda Azərbaycana qarşı ermənilər tərəfindən törədilən terrorun, işğalın, soyqırım və bəşəri cinayətlərin çatdırılması istiqamətində vətəndaş cəmiyyəti institutlarının rolu danılmazdır*

Vətəndaş cəmiyyəti dəstək tələb edən təşəbbüsləri ilə dövlətə üz tutur və dövlət tərəfindən ona yüksək səviyyədə dəstək ifadə olunur. Eləcə də dövlət mülki təşəbbüsləri öyrənir, dəstəkləyir. Dövlət ictimai təşkilatlara maddi, mənəvi, informasiya dəstəyinin verilməsində də mühüm rol oynayır. Onu da qeyd edək ki, dövlət vətəndaş cəmiyyəti vasitəsilə sosial siyasətinin həyata keçirilməsində də mühüm addımlar atır. Belə ki, dövlət əhalinin müdafiəyə daha çox ehtiyacı olan qruplarına sosial xidmətlərin göstərilməsində və yaxşı idarəçiliyin inkişaf etdirilməsində vətəndaş cəmiyyətinin daim fəal rol oynamasına çalışır.

Bundan başqa, dövlət Azərbaycanın dünya birliyinə inteqrasiya olunması prosesində də vətəndaş cəmiyyətinin imkanlarından səmərəli istifadə edir. Həmçinin, siyasi-hüquqi və vətəndaş mədəniyyətinin formalaşdırılması, vətəndaşların hüquqi biliklərinin inkişaf etdirilməsi, insan hüquq və azadlıqlarının təmin edilməsi, söz, fikir və ifadə azadlığının genişlənməsi, regionların sosial-iqtisadi inkişafının təmin edilməsi, təhsil, elm, texnika, mədəniyyət və incəsənətin inkişaf etdirilməsi, ətraf mühitin mühafizəsi, uşaq, qadın və gənclərin sosial, fiziki və mənəvi inkişafı və əhalinin sağlamlığının qorunması kimi məsələlərdə dövlət sayəsində vətəndaş cəmiyyətinin rolu artır.



**Rauf Zeyni,**
"Milli Qeyri-Hökumət Təşkilatı Forumu"nun İdarə Heyətinin sədri

### QHT-lər böyük layihələrə imza ata bilərlər

■ **"Milli Qeyri-Hökumət Təşkilatı Forumu"nun İdarə Heyətinin sədri Rauf Zeyni bizimlə söhbətində bildirib ki, indiyədək vətəndaş cəmiyyəti institutları xeyli uğurlara imza atıb: "Vətəndaş cəmiyyəti institutları 30 illik müstəqillik dövrü ərzində, xüsusilə son 20 il ərzində uğurlara imza atıb:** "Ümumiyyətlə, vətəndaş cəmiyyətində QHT hərəkatının gücləndirilməsi həm vətəndaş cəmiyyətinin formalaşmasına, həm də inkişafına müsbət təsir edir. Bu gün ölkədə 500-ə yaxın QHT fəaliyyət göstərir. Əslində 2000-ci ildə bizim forumun və Milli Məclisin birgə əməkdaşlığı nəticəsində, o cümlədən Ədliyyə Nazirliyinin dəstəyi ilə QHT-lər, fondlar və ictimai birliklər haqqında olan qanuna müvafiq olaraq 4 minə qədər QHT qeydiyyata alınıb. Amma təəssüflər olsun ki, hazırda onların sadəcə minə qədəri fəaliyyət göstərir. Müxtəlif səbəblərdən fəaliyyətlərini qura bilməyənlər, donor əldə edə bilməyənlər və s. olub. Bu gün aktiv QHT-lər təxminən 500-ə qədər nəzərdə tutulur və müxtəlif mənbələrdə bu barədə məlumat var. Təbii ki, dövlət QHT-lərə dəstək olur. Amma deyim ki, dövlət səviyyəsində də dəstək sistemli şəkildə artırılarsa, qeyri-hökumət təşkilatlarının maddi, texniki bazası, o cümlədən kadr bazası davamlı, dayanaqlı şəkildə inkişaf etdirilərsə, imkanlar daha da gücləndirilərsə, qeyri-hökumət təşkilatları həm ölkə daxilində, həm də təbii ki, beynəlxalq aləmdə çox böyük layihələrə imza ata bilərlər. Bu bizim potensialımızdan irəli gələn bir məsələdir. Yəni QHT-lərin belə potensialı, imkanları var. Sadəcə demək mümkünsə, bunu bu və ya digər sistemli şəkildə səfərbər etmək lazımdır. Bu, çox vacibdir. Biz güclü olmalıyıq ki, bizim müraciət etdiyimiz beynəlxalq təşkilatlar da bizim gücümüzdən, nüfuzumuzda irəli gələrək bizi eşitsinlər, dinləsinlər".

Ekspert qeyd edir ki, bütün məqamlarda dövlət quruculuğu dövlətin gücləndirilməsinə, onun inkişafına, beynəlxalq aləmdə xalqın haqq səsinin dünya ictimaiyyətinə çatdırılmasında mühüm rol oynayır: "Həmçinin, vətəndaş institutlarının formalaşmasında, insan hüquqları, sosial məsələlər, tibb, səhiyyə, mədəniyyət, ekologiya, təbii sərvətlər və digər sahələrdə problemlərin işıqlandırılmasına xidmət edir. Vətəndaş cəmiyyəti institutları mədəniyyətdən tutmuş iqtisadiyyata qədər, sosial problemdən tutmuş ekologiyaya qədər həm milli, həm də qlobal problemlərin işıqlandırılmasında, araşdırılmasında və bu sahədə vətəndaş cəmiyyətinin aktiv iştirakını təmin edir. Bundan başqa, dövlət quruculuğu prosesində dövlətçiliyin, o cümlədən azərbaycançılıq məfkurəsinin ölkəmizdə və dünyada yayılması istiqamətində aparılan işlərdə vacib rol oynayır. Məcburi köçkünlərlə işin aparılması və bütün mənalarda Azərbaycana qarşı ermənilər tərəfindən törədilən terrorun, işğalın, soyqırım və bəşəri cinayətlərin çatdırılması istiqamətində vətəndaş cəmiyyəti institutlarının rolu danılmazdır. O cümlədən soyqırımlarla bağlı beynəlxalq ədalət kampaniyası çərçivəsində layihələrin həyata keçirilməsi, fləşmobların, filmlərin çəkilməsi həm ölkə əhalisinin, həm də dünya ictimaiyyətinin maarifləndirilməsi istiqamətində qeyri-hökumət təşkilatları xeyli işlər görüb. Yəni, vətəndaş cəmiyyəti hər zaman dövlətin, dövlətçiliyin yanında olub. Hər zaman vətəndaş cəmiyyətinin hüquqlarının müdafiəsi istiqamətində müxtəlif fəaliyyətlər həyata keçirib. O cümlədən son dövrlərdə biz həm də ölkə prezidentinin tövsiyəsi ilə ictimai nəzarətin gücləndirilməsi, şəffaflığın artırılması, şəffaflığın nəzarətin institutunun formalaşması istiqamətində də addımlar atırıq. Bilirsiniz ki, 23 il ərzində milli hökumətlər forumu cəmiyyətdə maarifləndirmə və digər funksiyaları yerinə yetirməklə yanaşı, həm də ictimai nəzarət funksiyasını, ictimai müzakirələr, dinləmələr, monitorinqlərin keçirilməsi missiyasını da yerinə yetirib. Bu istiqamətdə biz bu gün də ictimai nəzarət mərkəzi olaraq geniş fəaliyyət göstəririk".

***Sevinc***

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

# Universitetlərdə vəzifə tutan məmurlar

**Azərbaycanda bəzi yüksək çinli məmurlar, eləcə də millət vəkilləri paralel olaraq həm də elm və təhsil sahəsində işləyirlər. Universitetlərdə işləyən məmur və deputatların bir çoxu kafedra müdiri kimi fəaliyyət göstərirlər. Məsələn, sabiq təhsil naziri Misir Mərdanov hələ təhsil naziri olduğu dövrdə Bakı Dövlət Universitetində (BDU) çalışırdı.**

Hazırda AMEA-nın Riyaziyyat və Mexanika İnstitutunun direktoru olan Misir Mərdanov bu gün də BDU-da Ali riaziyyat kafedrasının müdiridir. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sabiq sədri, hazırda millət vəkili olan Hicran Hüseynova da BDU-da vəzifə tutanlar sırasına daxildir. O, Diplomatiya və müasir inteqrasiya prosesləri kafedrasının müdiridir. Baş Nazirin müavini Əli Əhmədov isə BDU-da Politologiya və sosiologiya kafedrasının müdiri vəzifəsində çalışır. Baş nazirin birinci müavini Yaqub Eyyubov isə Azərbaycan Memarlıq və İnşaat Universitetinin inşaat fakültəsindəki Qruntların mexanikası, bünövrələr və özüllər, yeraltı qurğular kafedrasının müdiridir. Milli Məclisin deputatları Ziyafət Əsgərov BDU-da Konstitusiya hüququ, Nizami Cəfərov Ümumi dilçilik, Bəxtiyar Əliyev isə Psixologiya kafedralarının müdiridir. Əslində bu siyahını uzatmaq da olar. Bəs, görəsən, qanunvericilik bu məsələdə nə deyir? Məmurların, millət vəkillərinin ali məktəblərdə vəzifə tutması qanunvericiliyə uyğundurmu?



**Elçin Əfəndi,**
təhsil eksperti



■ **Məsələni hafta.az-a şərh edən təhsil eksperti Elçin Əfəndi bildirib ki, ali məktəblərdə vəzifə tutan məmurların əksəriyyəti əslində universitetlərdəki iş yerlərinə nadir hallarda gedirlər: "Məlum olduğu kimi, mövcud qanunvericilikdə məmur və millət vəkillərinin sahibkarlıq fəaliyyəti ilə məşğul olması qadağandır.** Onların təhsil və elm sahəsində çalışmasına isə qanunvericilikdə hansısa məhdudiyyət yoxdur. Amma faktiki olaraq reallıqda əmək qanunvericiliyinə görə, həm dövlət müəssisələrində, həm də ali məktəblərdə iş saatları üst-üstə düşdüyündən qanunvericiliyin tələbləri pozulur. Belə olan halda işin keyfiyyətindən söhbət gedə bilməz. Sadəcə olaraq məmurlar bir növ gələcəklərini düşündüklərindən ikinci iş yeri kimi ali təhsil müəssisələrində də vəzifə tutmaqda maraqlıdır. Onlar düşünürlər ki, nə vaxtsa vəzifədən uzaqlaşdırılmalı olsalar məşğuliyyətləri olsun, işsiz qalmasınlar. Əslində bu məsələdə hər iki tərəf maraqlıdır. Yəni, universitetlər də prestij baxımdan maraqlıdırlar ki, məmurlar hansısa kafedrada vəzifə tutsunlar. Lakin düşünürəm ki, bununla bağlı xüsusi olaraq istər Təhsil Nazirliyi, istərsə də müvafiq qurumlar konkret qərar verməlidir. Məsələn, bir şəxs dövlət qulluğunda çalışır və onun iş saatı səhər saat 9:00-dan 18:00-dəkdir. Bu şəxsin adı eyni zamanda, universitetlərdə gedirsə, həmin şəxs təhsil müəssisəsindən kənarlaşdırılmalıdır. Təəssüflər olsun ki, bizdə bunu etmirlər. Məmurdu deyə ehtiyat edirlər. Bu hal daha çox dövlət universitetlərində formalaşıb. Eyni zamanda, ali məktəblərdə vəzifə tutan məmurların əksəriyyəti əslində universitetlərdəki iş yerlərinə nadir hallarda gedirlər. Açığını desək, ali məktəblərdə sadəcə adları gedir, boş yerə maaş alırlar. Bu da qanunvericiliyin kobud şəkildə pozulması deməkdir".

*"Açığını desək, ali məktəblərdə sadəcə adları gedir, boş yerə maaş alırlar*

***Sevinc***

## XƏBƏRİNİZ OLSUN...



■ Ağdam Sənaye Parkında daha 2 sahibkara rezidentlik statusu verilib və rezidentlərin sayı 7-yə çatıb. Bunu İqtisadiyyat naziri Mikayıl Cabbarov "Twitter" hesabında yazib."İnvestisiya dəyəri 9 mln. manata yaxın olan layihələrin reallaşması ilə 85 nəfər daimi işlə təmin ediləcək",- nazir əlavə edib.

■ Bir müddət öncə Daxili İşlər Nazirliyinin tabeliyinə verilən Nəqliyyatın İntellektual İdarəetmə Mərkəzinə (NİİM) yeni rəhbər təyin edilib. Daxili işlər naziri Vilayət Eyvazovun əmri ilə bu vəzifəyə polis polkovnik-leytenantı Namidan Piriyev gətirilib.

■ Amerikalı milyarder İlon Mask tviter sosial şəbəkəsini aldığını elan etdikdən bir gün sonra sərvəti 29 milyard dollar azalıb. Bu barədə məlumatı "Forbes" yayıb.

■ Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrına "milli" statusu verilib. Bununla bağlı Baş nazir Əli Əsədov Qərar imzalayıb. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə bu Qərardan irəli gələn məsələləri həll etmək tapşırılıb.



■ "Rusiyaya mümkün qədər çox ölkə tərəfindən sanksiyalar tətbiq edilməlidir. Biz əlimizdən gələn qədər Ukraynanın öz müstəqilliyini qoruması üçün humanitar, siyas yardımlar göstərməliyik. Bütün bunların hamısı sülh danışıqlarına nail olmaq üçün edilməlidir". Bu sözləri İtaliya Prezidenti Sercio Mattarella AŞPA-nın yaz sessiyası zamanı çıxışında deyib.

■ Rusiyanın "Qazprom" şirkəti aprelin 27-dən etibarən Polşaya qaz nəqlini tamamilə dayandırıb. Bu barədə məlumatı "RİA Novosti" yayıb. Məlumata görə, Polşa Rusiya qazına görə ödənişləri rubl ilə etməkdən imtina etdiyinə görə Rusiya tərəfi belə bir qərar verib.

■ Cari ilin nəticələrinə görə, Rusiya Federasiyasının ÜDM-i 8,8%-12,4% arası azalacaq. Bu barədə Rusiya Hesablama Palatasının rəhbəri Aleksey Kudrin İqtisadi İnkişaf Nazirliyinin ilkin hesablamalarına istinadən bildirb. Onun sözlərinə görə, baza proqnozuna əsasən, bu il ölkədə inflyasiya təxminən 20,7% təşkil edəcək. Gələn il bu göstəricinin 6%-dən yüksək olacağı gözlənilir.



■ Əgər Ukraynadakı vəziyyətə kənardan müdaxilə olarsa, cavabımız sürətli olacaq. Bu barədə Rusiya Prezidenti Vladimir Putin bildirib. O, Rusiyaya təhlükə yaradılacağı halda, opponentlərində olmayan silahlardan istifadə edəcəklərini bəyan edib.

■ 2022-ci il iyunun sonunda Yunanıstan-Bolqarıstan interkonnektoru (IGB) istismara veriləcək, sentyabrdan isə bu xətdən Azərbaycan qazının nəqli başlayacaq. Bunu Bolqarıstanın baş naziri Kiril Petkov deyib. Onun sözlərinə görə, bu marşrutla tədarük Bolqarıstanda daha aşağı qaz qiymətlərini təmin edəcək və onun enerji müstəqilliyini gücləndirəcək.

# Qarabağda "Dnestryanı ssenarisi"

***Bir neçə gün əvvəl postsovet məkanının münaqişə ocaqlarından biri olan Moldova ərazisindəki Dnestryanıda partlayışlar baş verdi. Bu hadisədən dərhal sonra tərəflərin qarşılıqlı ittihamları müşahidə olundu. Ukrayna Prezident Ofisi Moldovanın Dnestryanı bölgəsində baş verən hadisələrə münasibət bildirib. Ukrayna Prezident Ofisinin rəhbərinin müşaviri Oleksiy Arestoviç "Feygin Live" verilişinin efirində bildirdi ki, Moldova Ukraynanın bizim ən yaxın qonşusudur:***



## Gündəm

"Biz onun taleyinə biganə qala bilmərik. Biz həmişə Moldova xalqının yanında olmuşuq. Dnestryanı Moldovanın suveren ərazidir. Bizə müraciət edərlərsə, həmin ərazini nəzarətə götürə bilərik". "Moldova hakimiyyəti Dnestryanı bölgədəki terror hücumunun məsuliyyətini tanınmayan respublikadakı daxili siyasi qüvvələrin üzərinə qoyur". Bunu isə Moldova Prezidenti Maya Sandu aprelin 26-da keçirilən Ali Təhlükəsizlik Şurasının iclasının yekununa dair brifinqdə bildirib. "Regionda sabitliyi pozmaqda maraqlı olan müxtəlif qüvvələr arasındakı münasibət gərginlik yaradıb. Bu, Dnestryanı bölgənin zəifləməsinə və Moldova Respublikası üçün risklərin yaranmasına səbəb olur. Biz sülhü təhlükə altına alan bütün təxribatları və Moldovanın fəaliyyətə cəlb olunması üçün cəhdləri rədd edirik", - o vurğulayıb. Xatırladaq ki, daha əvvəl Dnestryanıdakı rus qoşunlarının partlayış və mərmilərlə bağlı insidentlərdən sonra döyüş hazırlığı vəziyyətinə gətirildiyi bildirilmişdi. Kiyev hesab edir ki, Moskva bu cür təxribatlarla həmin regiondan Ukraynaya qarşı müharibədə istifadə etmək istəyir.

Dnestryanı bölgədə baş verən münaqişəli vəziyyətin Qarabağdakı vəziyyətlə oxşarlığını qeyd edən ekspertlər Rusiyanın müdaxiləsi ilə oxşar hadisələrin bizim ərazimizdə də baş verə biləcəyini ehtimal edir. Ümumiyyətlə, belə qeyd olunur ki, Moldovada, eləcə də Dnestryanı bölgədə rus sülhməramlıları var və ərazidə baş verən partlayış Kremlə yeni imkan yaradır ki, Ukraynanın qərbini də zəbt edib orda özünə yol açsın, Moldovanı özündən asılı vəziyyətə salıb, Dnestryanı bögəni də özünə birləşdirsin. Qarabağda rus sülhməramlılarının olmasını nəzərə alsaq, bu ssenarinin Qarabağda da təkrarlanması ehtimalı varmı?

■ **Qabil Hüseynli, politoloq:**

- Rusiya Dnestryanı ərazilərdə və Moldovada heç bir şey edə bilməyəcək. Qarşıda Rusiyanın əleyhinə birləşmiş 40 dövlət var. Rusiyanın imkanları tükənir. Eləcə də Moskva sülhməramlı bəhanəsi ilə Qarabağda da bir iş görə bilməyəcək. Qarşıda güclü Azərbaycan və qardaş Türkiyənin ordusu var. Rusiya bu bölgədə aranı qarışdırmağa cəhd etsə, bu, özünü intihara bərabər olacaq. Ortaya çıxan bütün problemlər tamamilə Rusiyanın özü, daxilindəki proseslərlə bağlıdır. Rusiyada elə proseslər baş verəcək ki, onların Qarabağda düşündüyü ssenarilərin heç biri həyata keçməyəcək. Bu gün Azərbaycanın Rusiyadan, eləcə də Ermənistandan üçtərəfli sazişə əməl olunmasını gözləyir. Eləcə də Paşinyan Brüsseldə Sülh müqaviləsinin imzalanması ilə bağlı öhdəlikləri yerinə yetirməli ilə bağlı razılaşmalara əməl etməyə məcburdur. Rusiyanın Qarabağda əbədi qalmaq üçün yollar axtardığı, lazım gələrsə, təxribatlara əl ata biləcəyini heç kəs inkar etmir. Bu gün vəziyyət heç də Kremlin xeyrinə deyil və bu dövlət Azərbaycanla münasibətlərini korlamaq üçün belə səhvlərə yol verməz.



Rusiya sühməramlılarını qorumaq istəyirsə, buyurub ərazidən çıxara bilər. Yox əgər Qarabağda sülhməramlıların olduğu yerlərdə hər hansı partlayışlar törətmə ssenarisini təkrar edərsə, bu da Rusiyaya hər hansı bir formada müdaxilə etməsinə imkan verməyəcək. Ən azı, Rusiya üçtərəfli sazişə uyğun olaraq öhdəliyini yerinə yetirməli və erməni silahlı birləşmələrini Qarabağdan çıxarmalıdır. Əgər Rusiya bunu etməyəcəksə, Prezidentin də dediyi kimi Dəmir Yumruq yerindədir!. Paşinyan sonunda sülh müqaviləsinə imza atmalıdır. Artıq danışıqlar prosesi buna doğru gedir. Heç şübhəsiz, ermənilərin havadarları, separatçılar öz məqsədlərini gerçəkləşdirmək üçün istənilən təxribata gedirlər. Ermənilərin, separatçı rejimin Azərbaycan daxilində məkrli iddialarına baxmayaraq, Azərbaycan tərəfi onlara son şans verdiyini bir daha Şuşadan bəyan etdi. Nəhayət, sülhə gələcəklərsə, qanunlarımıza tabe olacaqlarsa, qalıb yaşayacaqlar, əks halda gedəcəklər. Heç bir halda Rusiya Qarabağı Dnestryanı və Moldova "ssenarisi" ilə idarə etməyə qalxa bilməz".

> "
>
> *Rusiya heç bir halda Qarabağı Dnestryanı və Moldova "ssenarisi" ilə idarə etməyə qalxa bilməz*
>
> *Nə Azərbaycan Parlamenti, nə də BMT rus sülhməramlılarına Cənubi Qafqazda hüquqi mandat verməyib*

■ **Zaur Məmmədov, politoloq:**

- Qarabağın Moldova və Dnestryanı bölgələrlə müqayisə olunması düzgün deyil. Rəsmi Bakı Moldova, Ukrayna, hətta Gürcüstandan fərqli olaraq əvvəldən xarici siyasət davranışında regionda güc sahibi olan mühüm geosiyasi oyunçuların maraqlarının uzlaşdırılması istiqamətində mühüm addımlar atıb. Nəticə etibarilə gördük ki, 44 günlük müharibədə coğrafi cəhətdən dünyada ilk dəfə olaraq kiçik bir dövlət II Dünya müharibəsindən sonra müharibəyə başladı və öz məqsədlərinə çatdı.

Moldovada, Dnestryanı bölgələrdə baş verən hadisələrə gəldikdə isə etiraf edilməlidir ki, hökumətin Qaqauziya və Dnestryanı ərazilərə təsir imkanları o qədər də böyük deyil və vaxtilə həm Moldova, həm Gürcüstan 1990-cı illərin əvvəllərində sülhməramlılara rəsmi olaraq mandat verdilər. Nəticə etibarilə 1999-cu ildə İstanbul Zirvə görüşündə, Rusiya Gürcüstandakı sülhməramlıları çıxarmağa öhtəlik götürsə də, bu icra edilmədi və sonrakı hadisələr hər kəsə məlumdur. Gürcüstanın "çıx" istəklərinə baxmayaraq, sülhməramlıların orda qaldığını və sonradan Cənubi Osetiya və Abxaziya ilə bağlı məlum hadisələri hər kəs bilir.

Qarabağ Azərbaycanın nəzarətindədir və Rusiya sülhməramlıların nəzarətində olan ərazilərdə nələr baş verdiyini rəsmi Bakı çox yaxından izləyir. Digər tərəfdən, orada olan sülhməramlıların əslində heç bir hüquqi bazası yoxdur. Nə Azərbaycan Parlamenti, nə də BMT rus sülhməramlılarına Cənubi Qafqazda hüquqi mandat verməyib. Bu isə bizə imkan verir ki, üçtərəfli sənədə uyğun olaraq vacib addımları ataq.



Nikol Paşinyanın Qarabağdakı separatçılarla, Ermənistan hökuməti üzvlərinin birgə təhlükəsizlik şurasının iclasını çağırması Azərbaycan-Ermənistan arasındakı son zamanlar mühüm anlaşmalar və sülh müqaviləsinin müzakirə edilməsi ilə bağlıdır. Məsələ burasındadır ki, Azərbaycan-Ermənistan xarici işlər nazirləri, eyni zamanda, liderləri arasında olan görüşlərdə müzakirə edilən mühüm müddəalar və əldə edilmiş qərarlar separatçılara Paşinyan tərəfindən deyilməlidir ki, reallığın nədən ibarət olduğunu anlasınlar. Regionda çox ciddi hadisələr baş verir. ABŞ, Avropa İttifaqı, Rusiya arasında ciddi şəkildə regionla bağlı mübarizə var. O qüvvələr başa düşməlidirlər ki, Cənubi Qafqazı əldən vermək istəmirlərsə, o zaman rəsmi Bakının maraqlarını nəzərə almalıdırlar. Azərbaycan nə Rusiya, nə Avropa İttifaqı, nə də ABŞ üçün asan həzm olunan beynəlxalq subyekt deyil. Əksinə, 30 il müddət göstərdi ki, əgər kimsə Bakının maraqlarını nəzərə almasa itirmiş tərəf olacaq və məqsədlərinə çatmayacaq.

✍ *Tahirə*

## Təklif

**Məlum olduğu kimi, mayın 1-dən Azərbaycanda pandemiya ilə bağlı tətbiq olunan bəzi qadağalar aradan qaldırılacaq. Eyni zamanda, maska tələbi ləğv olunacaq. Elə bu səbəbdən pandemiya dövründə karantin qaydalarının pozulmasına görə yazılan cərimələrin ləğvi ilə bağlı məsələ yenidən gündəmə gəlib. Bu məsələnin parlamentin komitələri tərəfindən müzakirəyə çıxarılması təklif edilir. Yeri gəlmişkən, belə bir təcrübə başqa ölkələrdə mövcuddur. Məsələn, qonşu Gürcüstanda pandemiya cərimələri hökumətin təqdimatı ilə parlament tərəfindən çoxdan ləğv edilib.**

# Karantin cərimələri



## Silinməsi nə dərəcədə realdır?

Xatırladaq ki, İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsinə əsasən, Azərbaycanda vətəndaş törətdiyi xətaya görə aldığı cəriməni 30 gün müddətində ödəməlidir.

Bəs, görəsən bu təklifin reallaşması nə dərəcədə mümkündür? İndiyədək nə qədər vətəndaş cərimələnib? Hazırda ödənməyən cərimələrin sayı və məbləği bilinirmi?

■ **Məsələ ilə bağlı hafta.az-la fikirlərini bölüşən millət vəkili Müşfiq Cəfərov bildirib ki, karantin cərimələrinin silinməsi təklifini dəstəkləyir:**

"Bildiyiniz kimi, Milli Məclisin iclasında həmkarlarım tərəfindən karantin cərimələrinin silinməsi təklif olundu. Mən də mətbuatda çıxış edərək bu təklifi dəstəkləmişəm. Karantinin bu dərəcədə sərtləşməsinin, cərimələrin tətbiq olunmasının əsas səbəbi əhalinin pandemiyaya adaptasiya olması və sağlamlıqlarının qorunması üçün idi. Artıq bu hallara ehtiyac qalmayıb, əhali özü tam şəkildə adaptasiya olub. İctimai nəqliyyatda, qapalı məkanlarda maska taxmaq qadağasının ləğvi pandemiyanın sona çatdığını göstərir. Ümumiyyətlə, bu cərimələrin tətbiqi sadəcə pandemiyaya uyğunlaşmaq, qaydalara əməl edilmək üçün idi. Düşünürəm ki, qanunverici hakimiyyət tərəfindən ümumilikdə pandemiya şərtlərinin pozulmasına görə inzibati məsuliyyət tədbirləri tətbiq edilmiş şəxslər barəsində amnistiya qəbul edilə bilər.

İnanmıram ki, bu cərimələrin silinməsi əks-effekt də verə bilər. İnsanlar pandemiya barədə tamamilə maarifənib, fəsadlarını isə az-çox ölkə olaraq yaşadıq. İnsanların maddi vəziyyətini nəzərə alıb, cərimələri ləğv etmək yaxşı haldır. Əgər bu təklif bir il bundan əvvəl müzakirə olunsaydı, mən də müəyyən mənada tərəddüd edərdim ki, bu insanlara da arxayınlıq yarada bilər.

Bir halda ki, pandemiya şərtləri aradan qalxıbsa, qapanmalar və digər məsələlər aktuallığını itiribsə, vaksinasiya prosesi də daha geniş miqyasda həyata keçirilibsə, niyə də karantin cərimələri aradan qaldırılmasın? Mənə görə bu daha doğru addım olardı".

■ **Mövzu ilə bağlı hafta.az-a danışan millət vəkili Vüqar Bayramov da deyib ki, karantin cərimələrinin ləğv edilməsinin tərəfdarıdır:**

"Karantin qaydalarının xeyli dərəcədə yumşaldılması müşahidə olunur və çoxsaylı qadağalar ləğv olunub.

Gələn aydan da bu proses davam etdiriləcək. Düşünürəm ki, karantin qaydaları tamamilə aradan qalxdıqdan və eləcə də pandemiya sonlandıqdan sonra cərimələrə baxılması və həssas kateqoriyalar üçün cərimələrin bağışlanması məsələsi müzakirə oluna bilər. Düzdür, bütün hallarda bununla bağlı qərar Nazirlər Kabineti tərəfindən veriləcək. Nazirlər Kabineti praktiki olaraq prosesə məsul qurumdur və bu istiqamətdə də həm qərarların verilməsi, həm müzakirələrin aparılmasını həyata keçirir.

Məsələnin sosial tərəfini nəzərə alsaq, düşünürəm ki, pandemiya başa çatdıqdan sonra məsələnin müzakirəsi və bu istiqamətdə Nazirlər Kabineti tərəfindən qərarların qəbul edilməsi məqsədəuyğun olardı".

> "
>
> *Bu cərimələrin tətbiqi sadəcə pandemiyaya uyğunlaşmaq, qaydalara əməl edilmək üçün idi*
>
> *Həssas kateqoriyalar üçün cərimələrin bağışlanması məsələsi müzakirə oluna bilər*
>
> *Belə cərimələr yığılıb silinəndə cəmiyyətdə bir növ huquqa qarşı hörmətsizlik yaranır*

■ **Məsələyə münasibət bildirən hüquqşünas Sahib Məmmədov isə bildirib ki, karantin cərimələrinin silinməsi mümkündür: "Bunun hüquqi yolları var.** Cərimələri silmək mümkündür. Belə cərimələr yığılıb silinəndə cəmiyyətdə bir növ huquqa qarşı hörmətsizlik yaranır. Məsələn, xeyli adam var ki, cərimə olunublar və cərimələrini də ödəyiblər. Cərimələrini ödəməyənlərə bu məbləğ bağışlanırsa, onlar növbəti də istənilən cəriməni ödəməyəcəklər ki, yəqin bağışlanacaq. Düzdür, bu işin mənfi tərəfləri var, amma əlbəttə ki, humanist tərəfləri də mövcuddur".

İndiyədək nə qədər şəxsin cərimələndiyini, eyni zamanda, ödənməyən cərimələrin sayı və məbləğini dəqiqləşdirmək məqsədilə Daxili İşlər Nazirliyi ilə əlaqə saxladıq. Qurumdan bizə bildirdilər ki, bununla bağlı konkret statistika yoxdur.

✍ *Sevinc*

# Qəhrəman xalqımız Qarabağda əbədi yaşayacaq

**Azərbaycanda 2022-ci ilin Prezident İlham Əliyev tərəfindən "Şuşa İli" elan edilməsi dünya mədəniyyətinə, eləcə də regional təhlükəsizliyə, eyni zamanda, sülhə səslənən növbəti çağırış idi. Məhz "Şuşa ili"ndə Dünya Azərbaycanlılarının V Qurultayının keçirilməsi mənəvi və siyasi baxımdan böyük əhəmiyyət kəsb edən tarixi bir hadisədir.**



**Məzahir Əfəndiyev,**
Azərbaycan Respublikasının
Milli Məclisinin deputatı

Ali Baş Komandan, Böyük Sərkərdə, Prezident İlham Əliyevin dediyi kimi, dünya Azərbaycanlıları İkinci Qarabağ - Vətən Müharibəsində əldə olunmuş tarixi Zəfərdən sonra ilk dəfə toplaşdılar. Doğrudan da 44 günlük Vətən Müharibəsində xalqımız 30 il davam edən işğala son qoymaq üçün ölkə Prezidentinin ətrafında sıx birləşdi, gücünü, iradəsini ortaya qoyaraq ədaləti və beynəlxalq hüququ bərpa etdi. Müzəffər Ali Baş Komandan, Böyük Sərkərdə İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusu Şuşanı işğaldan azad etməklə Vətən Müharibəsini tarixi Qələbə ilə başa vurdu.

Beləliklə, bu mötəbər tədbirin məhz Şuşa şəhərində baş tutması Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə 2001-ci ildə keçirilmiş Dünya Azərbaycanlılarının I Qurultayında Ulu Öndərin dediyi kimi, "Biz Qarabağa qayıdacağıq" tarixi sözlərinin gerçəkliyə çevrildiyini nümayiş etdirdi. Şuşa mədəniyyət paytaxtı kimi xalqımız üçün son dərəcə əziz, müqəddəs bir şəhərdir və bu şəhərə olan sevgi, bağlılıq hər bir Azərbaycan vətəndaşının mənəvi varlığının ayrılmaz parçasıdır.

Heydər Əliyevin dünya Azərbaycanlılarının birliyinin, həmrəyliyinin təmin edilməsi ilə bağlı ideyaları bu gün də aktualdır. Prezident İlham Əliyev tərəfindən "Zəfər Qurultayı" adlandırılan Dünya Azərbaycanlılarının V Qurultayı milli birliyimizi, həmrəyliyimizi növbəti dəfə dünyaya nümayiş etdirdi. Qurultay son illər yüksək həmrəylik və birlik nümayiş etdirən, Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılmasında xüsusi rol oynayan doğma Qarabağımızın işğaldan azad edilməsindən sonra Azərbaycan diasporunun iştirak etdiyi ən böyük toplantıdır. İndiyədək keçirilən Qurultaylar diaspor quruculuğu işinə əsaslı töhfələr vermişdir.

Qurultayda çıxış edən Möhtərəm Prezidentimiz müharibənin gedişi, qələbənin əldə olunması üçün beynəlxalq müstəvidə aparılmış qətiyyətli fəaliyyət, beynəlxalq ictimai rəyi Azərbaycanın lehinə dəyişmək uğrunda görülən böyük işlər, ən əsası isə Azərbaycan əsgərinin və bütövlükdə xalqımızın milli həmrəyliyi ilə bağlı vacib məqamlara toxundu. Qısa zaman ərzində işğaldan azad edilmiş torpaqlarda aparılan böyük quruculuq işləri Azərbaycan xalqının Qarabağa qayıdışla bağlı əzmini və mövqeyini ortaya qoyur.

> "
>
> *Heydər Əliyevin dünya Azərbaycanlılarının birliyinin, həmrəyliyinin təmin edilməsi ilə bağlı ideyaları bu gün də aktualdır*

Belə tədbirlərin keçirilməsi Azərbaycan, onun gələcəyi üçün əhəmiyyətli olmaqla yanaşı, ölkəmizin bölgədə böyük nüfuz və gücə sahib olduğunun göstəricisidir.

Bu Qurultaylar dünya Azərbaycanlılarının Prezident İlham Əliyevin, deməli, Azərbaycan dövlətinin ətrafında sıx birləşdiyini bir daha təsdiq edir və Cənab Prezidentin də söylədiyi kimi: "Mən tam əminəm ki, bundan sonra Azərbaycan xalqı müzəffər xalq kimi əbədi yaşayacaq, Azərbaycan dövləti qalib dövlət kimi əbədi yaşayacaq. Biz öz torpağımızdayıq, bu torpaqda möhkəm dayanmışıq və heç kim heç vaxt bu torpaqlardan bizi tərpədə bilməz".

# Münbit torpaq qıtlığı

**Son bir ildə qlobal ərzaq qiymətləri rekord səviyyədə bahalaşıb. Hesablamalara görə, dünya ərzaq qiymətlərində təxminən 35-40 faiz ətrafında bahalaşma var. Bu gün elə ölkəmizdə də qiymət artımı sürətlə müşahidə edilir. Rəsmi açıqlamalara görə, 2022-ci ilin yanvar-fevral aylarında istehlak qiymətləri indeksi 2021-ci ilin yanvar-fevral aylarına nisbətən 12,2 faiz, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə 17,2 faiz, qeyri-ərzaq məhsulları üzrə 6 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə 10,2 faiz artıb.**



## Aqrar

Dövlət Statistika Komitəsinin yaydığı məlumata əsasən, cari ilin fevral ayında istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 1,1 faiz, əvvəlki ilin fevral ayına nisbətən 11,9 faiz artıb. Cari ilin fevral ayında əvvəlki aya nisbətən ayrı-ayrı ərzaq məhsullarından daha çox bahalaşma unun, çörəyin, peçenyenin, vaflinin, qoyun, mal və toyuq ətinin, kolbasa məmulatlarının, təzə balığın, qatılaşdırılmış şəkərli və pasterizə olunmamış üzlü südün, xamanın, kəsmiyin, yoqurtun, pendirin, kərə yağının, süfrə marqarininin, bananın, naringinin, narın, heyvanın, balqabağın, pomidorun, xiyarın, kartofun, soğanın, sarımsağın, kələmin, şokolad məmulatlarının və konfetlərin, qəhvə və kakao tozunun, kola içkisinin, meyvə şirəsinin, arağın qiymətlərində müşahidə olunub.

Qeyd edək ki, bu gün Azərbaycanın əksər kənd təsərrüfatı məhsulları üzrə idxaldan asılılığı yerli bazarlarda özünü ciddi şəkildə göstərir. Statistik məlumatlara nəzər saldıqda görürük ki, Azərbaycanda kənd təsərrüfatı sektoru üzrə yalnız bitkiçilik məhsulları üzrə özünütəminetmə səviyyəsi yüksəkdir. Məsələn, özünütəminetmə səviyyəsi bitkiçilik məhsullarından meyvə və giləmeyvələrdə 116 faiz, tərəvəzlərdə 110 faiz, bostan məhsullarında 101 faizdir. Əsas tərəvəzlərdən olan kartofla özümüzü 90 faiz, baş soğanla 103 faiz, pomidorla 131 faiz təmin edə bilirik. Kartofla təminatı ödəmək üçün İran, Rusiya və Gürcüstandan idxal həyata keçirilir. Əsas bitkiçilik məhsullarından olan buğda ilə təminat səviyyəsi isə ürəkaçan. Rəsmi rəqəmlərə görə, yerli istehsal hesabına buğdanın 57 faizini ödəyə bilirik, qalanını isə Rusiya və Qazaxıstandan alırıq. İdxal buğdasının təxminən 80-85 faizi Rusiyadan gətirilir. Buğdadan başqa taxıl məhsullarından qarğıdalının 15 faizini, vələmirin, yəni yulafın14 faizini idxal edirik. Arpa ilə təminatda idxaldan asılılığımız yoxdur.

Əslində isə uzun illərdir ölkəmizdə yerli istehsalın stimullaşdırılması üçün müxtəlif tədbirlər həyata keçirilir. Xüsusilə ərzaq təhlükəsizliyinin təmin olunması məqsədilə aqrar istehsalçılara dövlətin müxtəlif dəstək mexanizmləri tətbiq olunur. Bu mexanizmlər arasında məhsul istehsalına, əkin sahəsinə, heyvana görə subsidiyalaşma, texnika, avadanlıq, gübrə və pestisidlərin, cins damazlıq heyvanların alışının dəstəklənməsi, kənd təsərrüfatı məhsullarının sığortalanması (sığorta haqqının yarısı dövlət tərəfindən qarşılanır), kənd təsərrüfatı istehsalçılarına güzəştli kreditlərin verilməsi mühüm yer tutur. Məsələn, 2022-ci ildə Azərbaycanda kənd təsərrüfatı üçün dövlət büdcəsindən 997,3 milyon manat vəsait ayrılması nəzərdə tutulur. Başqa sözlə, builki büdcə xərclərinin 3,3 faizi aqrar sektor üçün nəzərdə tutulub. Vəsaitin 456 milyon manatı bilavasitə ərzaq təhlükəsizliyinin təmin edilməsinə yönəldiləcək.

“

*Biz, əsasən, əkinəyararlı torpaqlar məsələsində uduzuruq*

*Biz resurs satan ölkədən məhsul satan ölkəyə keçməliyik*

Bu gün dövlətin müxtəlif qurumları vasitəsilə sahibkarlığa yönəlik vəsaitlərin mühüm hissəsi də aqrar sektorun payına düşür. Amma görülən tədbirlərə rəğmən Azərbaycanda ərzaq təhlükəsizliyinin təmin olunduğunu söyləmək qeyri-mümkündür. Bu isə hökumətin daha effektli tədbirlər həyata keçirməsinin vacib olduğunu göstərir.

Bəs, görəsən, indiki şəraitdə ölkəmiz üçün daha çox hansı məhsulların əkilib becərilməsi prioritet olmalıdır? Hansı bitkilər üzrə əkin sahələrini artırmaq və ya azaltmaq məqsədəuyğundur?

Məlumat üçün bildirək ki, bu gün işğaldan azad edilmiş ərazilər də aqrar sektorun inkişafı baxımından çox yaxşı potensial hesab olunur. Proqnozlara görə, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ölkənin ərzaq təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayacaq.

■ **Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayevin sözlərinə görə, həmin ərazilər tarixən böyük taxılçılıq, pambıqçılıq, heyvandarlıq, tütünçülük, üzçümçülük məhsulları istehsal etməkdə öndə olublar:**

“İstehsal olunan məhsullar istər məhsuldarlığına, istərsə də keyfiyyətinə görə daim fərqlənib. İşğaldan azad edilmiş ərazilərin bir qismi minalardan təmizlənib və təhlükəli olmayan ərazilər əkinə hazırlanmaqdadır. Aran ərazilərdə, yəni Ağdam və Füzuli rayonlarında pambıq, üzüm, şəkər çuğunduru, qarğıdalı yetişdirmək çox faydalıdır və həmin torpaqlar çox məhsuldardır. Dağlıq ərazilər, yəni Kəlbəcər, Laçın və Qubadlı tarixən heyvandarlıq zonaları hesab olunublar. Eyni zamanda, işğaldan azad edilmiş ərazilərdə balıqçılığın inkişafı üçün lazım olan şərait var. Digər tərəfdən, həmin ərazilərdə tərəvəz və bostan məhsullarının yetişdirilməsi, yem əkinlərinin genişləndirilməsi tələbata uyğundur”. T.Rzayev əlavə edib ki, bu gün ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi qarşıda duran əsas vəzifələrdəndir. “İşğaldan azad edilmiş ərazilərdə taxılçılığın inkişafı gündəmdə olacaq və bunun üçün də həmin ərazilərdə mövcud vəziyyət qənaətbəxşdir. O torpaqlarda şəkər çuğunduru əkilə və yüksək məhsuldarlıq götürülə bilər”.

### Fermer nəyi bacarır, onu əkir

■ **Mövzu ilə bağlı hafta.az-a danışan kənd təsərrüfatı məsələləri üzrə ekspert Mircavid Həsənov deyib ki, Azərbaycanın iqlim şəraiti müxtəlif əkin işlərini aparmağa imkan verir. Sadəcə olaraq, dənli bitkiləri Azərbaycanda yetişdirmək sərfəli deyil:**

“Bundan başqa bizdə əkinə yararlı torpaqlar da azdır. Məsələn, düzənlik ərazilər var ki, Bakıdan başlayır Hacıqabul Kürdəmirə qədər uzanır. Yəni, ucu-bucağı görünməyən böyük ərazilər var. Amma hamısı şoran, əkinə yararsız torpaqlardır. Orada hansısa əkin-biçin işi aparmaq mümkünsüzdür. Təbii ki, həmin əraziləri əkmək mümkün olsaydı, eyni zamanda suvarma problemi olmasaydı, böyük ərazilərdə dənli bitkilər əkmək sərfəli olardı. Həmin ərazilərdə buğda, qarğıdalı, qarabaşaq, günəbaxan və s. yetişdirmək mümkün idi. Biz əsasən əkinə yararlı torpaqlar məsələsində uduzuruq. Əkinə yararlı yerlərimizdə isə bu məhsulları əkmək fermer üçün sərfəli deyil. Misal üçün mən fermerəm. Xaçmazda 10 hektar sahəm var. Həmin 10 hektar yerdə dənli bitki əkməkdənsə, meyvə bağı salaram. Tutaq ki, 1 hektar buğdadan mən qazanacam ən yaxşı halda 2 min manat. Amma 1 hektar nektarin və ya gilas bağından qazana bilərəm 50-70 min manat. Yəni, dənli bitkilər becərmək uçün 10-20 min hektarlarla ərazi olmalıdır ki, iş fermerə sərf etsin. Necə ki, Rusiyada var, məsələn, orada azərbaycanlı fermer tanıyıram ki, 30 min hektar ərazisi var və orada da buğda əkin. Yəni, bu məsələdə hökumət nə tədbir görürsə-görsün sahibkar onu əkməyəndən sonra dövlət onu heç nəyə məcbur edə bilməz. Tutaq ki, bir ara sahibkara pambıq əkməyi təşviq edirdilər. Sahibkarlar da əkdi, amma gördülər ki, ciddi xeyir yoxdur, başladılar yonca əkməyə. Burada məcburiyyətdən söhbət gedə bilməz, fermer istəyir ki, gördüyü işdən xeyir götürsün. O ki qaldı aqrar sektora dövlət dəstəyinə, deyərdim ki, Azərbaycanda bu sahəyə verilən dəstək heç bir ölkədə yoxdur. Məsələn, adi bir misal çəkim. Biz türkiyəli həmkarlarımıza deyəndə ki, Azərbaycanda fermerə heç bir təmənna olmadan subsidiya verilir, onlar təəccüb qalırlar. Sadəcə, bizdə çatışmayan institusional səviyyədə dəstəkdir. Dövlət tərəfindən infrastruktur yaradılıb, amma onun içində çalışan əqli mülkiyyət yoxdur ki, fermeri yönləndirsin. Yəni, fermer başsız qalıb, nəyi bacarır onu əkir. Amma Türkiyədə subsidiya kartı olmasa da, misal üçün, hər bir fermer qeydiyyatdadır. Hər bir fermerin telefonuna mütəmadi olaraq aqrotexniki qulluqla, gübrələrin verilməsi ilə bağlı təlimat xarakterli sms göndərilir. Biz fermerə maliyyə dəstəyi versək də, bu kimi məsələlərdə “axsayırıq”.

### Pulu elə sahələrə qoymalıyıq ki...

■ **Məsələyə münasibət bildirən iqtisad elmləri doktoru, professor Əli Əlirzayev isə vurğulayıb ki,əslində tarixən Azərbaycan kənd təsərrüfatı ölkəsi olub: “Təcrübədə aqrar ölkə anlayışı var. Lakin sənaye olmasa, aqrar ölkə kimi imkanlar geniş olmaz.**

İlk olaraq sənaye də inkişaf etməli və nəticədə aqrar proses getməlidir. Kənd təsərrüfatını inkişaf etdirmək imkanları genişdir. Ancaq bunun üçün şoran torpaqları normal hala gətirmək lazımdır. Bunu elmi texniki-tərəqqi ilə həll etmək olar. Kənd təsərrüfatı həm də kompleks baxış tələb edir. Biz bu sahəni inkişaf etdirmək üçün ilk olaraq müəyyən kapital qoymalıyıq. Bu da gəliri artırmalıdır. Biz stimul yaratmaqla buna nail ola bilərik. Ancaq kənd təsərrüfatının bir sahəsini inkişaf etdirirksə, məsələn heyvandarlığı, burada son məhsul anlayışına diqqət etməliyik. Heyvandarlığı inkişaf etdirsək, amma onun dərisindən və ya südündən istifadə etməsək, bu uğurlu olmaz. Biz resurs satan ölkədən məhsul satan ölkəyə keçməliyik. Yəni istənilən sahənin son həddinə qədər getməliyik. Hazırda bizdə süd emalı zavodları yoxdur, bəzi iş adamlarının süd emalı müəssisələri var. Demək istəyirəm ki, biz son həddə qədər getməliyik. Eləcə də ət fabrikləri qurmalıyıq”. Onun sözlərinə görə, aqrar sektor elə sahədir ki, burada işləri tez görmək olar: “İki il müddətinə bu işləri həyata keçirmək olar. Sadəcə burada aqrar sahədə əldə olunacaq məhsula uyğun zavodlar, emal müəssisələri tikilməlidir.

Kənd təsərrüfatı ancaq əkmək və biçməklə bitmir. Burada gübrə zavodu, emal müəssisələri olmalıdır. Təsəvvür edin ki, bu sahəyə dövlətin diqqəti artarsa, ölkədə gübrə zavodu, emal müəssisələri, traktor istehsal edən müəssisə, pambıq kombinatları olacaq. Əlbəttə, bunları etmək üçün kapital lazımdır. Ancaq nəticədə böyük bir sistem yaranacaq, iş yerləri olacaq. Məncə, bu müəssisələri tikmək üçün ehtiyat maliyyəmizdən istifadə edilə və ya başqa mənbələr tapıla bilər. Biz pulu elə sahələrə qoymalıyıq ki, bir müddətdən sonra bu sahələr real gəlir gətirsin və ölkənin imkanlarını genişləndirməyə dəstək olsun”.

✍ ***Sevinc***

---

**Bu illər ərzində torpaqlarımızın işğaldan azad edilməsi problemi dövlətimizin, xalqımızın qarşısında duran, bizim üçün həmişə aktual olan və hər an öz həllini gözləyən ən başlıca, ən əsas problem olmuşdur. Böyük dövlətlərin iştirakı və rəhbərliyi ilə bizimlə mənfur düşmən arasında gedən saysız-hesabsız sülh danışıqları heç bir nəticə vermədi. Bu danışıqlar həmişə imitasiya xarakteri daşımış və yalnız vaxtı uzatmaq məqsədi güdür.**

# “Biz birlikdə qalib gəldik”



**Elvin Ağayev,**
Masallı rayon Qəriblər kənd sakini

Düşmən hesab edirdi ki, əvvəlki dövrlərdə olduğu kimi, vaxt bizə torpaqlarımızın işğalını unutduracaq və gec-tez bu işğalla barışmalı olacağıq. Prezident İlham Əliyev hər zaman qeyd etmişdir ki, bu işğalla heç zaman barışmayacağıq və torpaqlarımızı sülh yolu ilə azad etmək mümkün olmazsa, hərbi yolla azad edəcəyik. Bununla bağlı Ali Baş Komandan İlham Əliyev tez-tez elan edir ki, ”Biz güclü dövlətik! Bizim güclü ordumuz var!”. Bu, işğal azmış kimi, yırtıcı düşmən atəşkəs rejimini hər gün dəfələrlə pozurdu və ölkəmizi, bizi yeni torpaqlarımızı işğal etməklə hədələyirdi, ölkəmizə ara-sıra hücumlar da edirdi. Hər dəfə ordumuz tərəfindən düşmən susdurulurdu. Ölkəmiz üzərinə düşmənin son hücumu 27 sentyabr 2020-ci il tarixdə baş verdi. Biz torpaqlarımızı işğal etmiş, zaman-zaman insanlarımızı qırmış, soydaşlarımıza insanlığa zidd olan, tükürpədici işgəncələr vermiş, insanlıqdan cox uzaq olan azğın düşmənin hücumunu dəf etməyə, onun vəhşiliklərinin qarşısını almağa məcbur olduq və aldıq da.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dünya azərbaycanlılarının Şuşa şəhərində keçirilən V Qurultayında çıxışında qeyd etdi ki, “Biz bu gün azad Qarabağda, azad Şuşada Dünya Azərbaycanlılarının Qurultayını keçiririk. Bu qurultayın adı Zəfər qurultayıdır və bu, təbiidir. Tarixi Zəfərdən sonra ilk dəfədir, dünya azərbaycanlıları toplaşır, qurultay keçirir” - Qurultayın Qarabağda keçirilməsinin əhəmiyyətini şərh edən Prezidentin bu fikirləri xüsusi vurğulanıb. Erməni işğalı zamanı Şuşada törədilən dağıntılardan bəhs etdiyi, hazırda şəhərin yenidən dirçəlişi istiqamətində çox geniş işlər görüldüyünü, Şuşada keçirilən Qurultayın böyük tarixi əhəmiyyətinin olduğunu və Azərbaycanın yeni dövrə qədəm qoyduğunu bildirdiyi diqqətə çatdırılıb.

# Bakıya yeni prokuror təyin edilib



**Bakı şəhərinə yeni prokuror təyin edilib. Baş Prokurorluğun mətbuat xidmətindən APA-nın sorğusuna cavab olaraq bildirilib ki, bu barədə Baş prokuror Kamran Əliyev əmr imzalayıb.**

Əmrə əsasən, Baş Prokurorluğun Təşkilat və icraya nəzarət idarəsinin rəisi Abbasov Elşən Akif oğlu tutduğu vəzifədən azad olunaraq Bakı şəhər prokuroru təyin edilib. Qeyd edək ki, ötən gün Bakı şəhər Prokuroru İlqar Abbasovun səlahiyyət müddəti başa çatdığı üçün vəzifəsindən azad edilib.

---



■ **İndoneziya Prezidenti Coko Vidodo ukraynalı həmkarı Volodimir Zelenskini G20 sammitinə dəvət edib.**

Bu barədə məlumatı Zelenski öz rəsmi tviter hesabında paylaşıb. Qeyd edək ki, G20 sammiti ilin sonunda baş tutacaq və sammitə İndoneziya ev sahibliyi edəcək. Məlumdur ki, Rusiya da G20 ölkələrinə daxildir.

“Bloomberg” agentliyi yazır ki, İndoneziya Prezidenti Rusiya Prezidenti Vladimir Putini zirvə görüşünə dəvət etməməkdən imtina edib.

Bu isə o deməkdir ki, sammit çərçivəsində Putin və Zelenski arasında görüş baş tuta bilər.



■ **Rusiyada azərbaycanlı jurnalist və “Nə? Harada? Nə zaman?” televiziya oyununun iştirakçısı Rövşən Əsgərov barəsində cinayət işi başlanılıb.**

Bu barədə “RİA Novosti” xəbər verir. O, sosial şəbəkələrdəki paylaşımlarında nasizmi bərpa etməkdə ittiham olunur. RF İstintaq Komitəsi müəyyən edib ki, 49 yaşlı Əsgərov feysbukda rusiyalı sərkərdə, SSRİ marşalı Georgi Jukovun xatirəsini təhqir edən yalan məlumatlar paylaşıb. İstintaq Komitəsindən bildirilib ki, bu cür əməllərə görə qanunla müəyyən edilmiş cinayət məsuliyyəti nəzərdə tutulur.



■ **11 aylıq övladını yerə çırparaq ağır xəsarət yetirən ataya cinayət işi başlanılıb. Yasamal RPİ-nin 29-cu Polis Şöbəsinə aprelin 26-da 30 yaşlı Samir Ağakərimovun 1 yaşlı oğlunu evdən həyətə tullaması nəticəsində uşağın kəllə-beyin travması xəsarəti ilə xəstəxanaya yerləşdirilməsi barədə məlumat daxil olub.**

Polis əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində S.Ağakərimov şübhəli şəxs qismində tutularaq istintaqa təhvil verilib. Faktla əlaqədar Cinayət Məcəlləsinin 126.2.3-cü maddəsi (Qəsdən sağlamlığa ağır zərər vurma - xüsusi amansızlıqla, o cümlədən zərərçəkmiş şəxsə ağır iztirablar verməklə və ya sifarişlə, habelə təqsirkar üçün aşkar surətdə köməksiz vəziyyətdə olan şəxsə qarşı törədildikdə) ilə cinayət işi başlanıb.



■ **“Səfər zamanı mən Prezident İlham Əliyevlə şəxsən görüşmək şərəfinə nail oldum”. Bunu Gürcüstanın xarici işlər naziri İliya Darçiaşvili Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla birgə mətbuat brifinqində deyib.**

Nazir bildirib ki, Prezidentlə görüş böyük əhəmiyyət kəsb edirdi: “Prezident İlham Əliyevin Azərbaycan-Gürcüstan dostluğunun daha da möhkəmlənməsində xüsusi rolu var. Ölkələrimizin rifahı naminə bizim əməkdaşlığımız daha da möhkəmlənəcək. Həmkarımla görüşdə regionumuzun sabit inkişafı üçün ikitərəfli münasibətlərin inkişafına xüsusi diqqət yetirdik. Beynəlxalq əhəmiyyətli, Bakı-Tbilisi-Qars və digər layihələri yüksək qiymətləndirdik.



■ **Almaniya şirkətləri Qarabağda bərpa işlərində fəal iştirak edir.**

Bunu Almaniyanın Azərbaycandakı səfiri Volfqanq Maniq ”Sülh və təhlükəsizlik təhdid altındadır - Qaydalara əsaslanan dünya nizamı bizə niyə lazımdır” mövzusunda tədbir çərçivəsində Trend-in sualına cavabında deyib. Onun sözlərinə görə, iki Almaniya şirkəti yol tikintisi ilə məşğuldur. ”Digər ölkələrdən, məsələn, İsrail və Türkiyədən şirkətlər də alman texnologiyalarından istifadə etməklə Azərbaycanın azad edilmiş ərazilərində bərpa işlərində iştirak edirlər”, - səfir deyib.



■ **Mayın 1-dən ölkədə qapalı məkanlarda tibbi maskalardan istifadə tələbi ləğv edilsə də, pandemiya davam etdiyindən əhali ayıq-sayıq olmalıdır.**

Bunu jurnalistlərə açıqlamasında səhiyyə naziri Teymur Musayev deyib. O bildirib ki, əhalinin sıx toplaşdığı yerlərdə, qapalı məkanlarda maskadan istifadə tövsiyə olunur. ”Digər qalan məhdudiyyətlərə gəlincə, bu məsələ cari epidemioloji vəziyyətdən asılıdır. Çünki məhdudiyyətlərin hamısının birdən götürülməsi koronavirus infeksiyasına yoluxma saylarının kəskin şəkildə artmasına səbəb olur. Əsas rəqəmlər xəstəxanaya yerləşdirilən şəxslərin sayıdır. Xəstəxanaya yatış və ölüm sayları diqqət edilən məqamlardandır.

# Azərbaycanda sel təhlükəsi

***Yaşadığımız yazın ikinci ayında ölkəmizdəki çaylarda sel və daşqınların ola biləcəyi ehtimalı hər birimizi narahat etməkdədir. Nəzərə alsaq ki, Azərbaycan ərazisində Aralıq dənizi iqlim tipi hakimdir (yay və qış quraq, yaz və payız yağmurlu - V.T.), bu narahatlığın əbəs olmadığı üzə çıxar. Üstəlik, dünyada gedən qlobal istiləşmə prosesi durmadan təbii tarazlığı pozduğu üçün, tarixən insanların uyğunlaşdığı yerli təbii-coğrafi şərait də sürətlə dəyişməkdədir.***



## Araşdırma

Bu da özünü bəzi yerlərdə quraqlıqla, digər yerlərdə şiddətli yağıntılarla, heç qar yağmayan yerlərdə qar yağması ilə və sair özünü göstərməkdədir. O cümlədən, sel və daşqınların baş verməsi və ya mütəmadi hal alması da insanları heyrətləndirən təbii sürprizlərdəndir.

Yaxın keçmişimizə nəzər salsaq, Azərbaycan çaylarında yaşanan sel və daşqınlar daha çox yaz (eləcə də payız) fəslində olub. Bu dövrdə yağan yağışın həcmcə artması nəticəsində əksər dağlardan düzənliyə çıxan irili-xırdalı çayların gətirdiyi lilli su kütləsi dərəni doldurub, sahilləri basır. Elə yaxın keçmişdə bu hadisənin ölkəmizin güney bölgəsində - Masallıda şahidi olduq.

### İrili-xırdalı qəzəbli çaylar

**Azərbaycan ərazisində irili-xırdalı 8550-dən artıq axar sulu çay var. Bunlardan yalnız 50-nin uzunluğu 50 kilometrdən çoxdur, hətta 7550-nin uzunluğu 5 kilometrdən də azdır. Buna baxmayaraq, Azərbaycandakı mövcud çayların 87 faizində məhz yağış suları artdığı halda sel yaranır.**

Ümumiyyətlə, Azərbaycanda çayları sistemləşdirsək, görərik ki, mövcud olduqları regionlara baxmayaraq, daşqın törədənlərin hamısı dağ çaylarıdır. Bunlar, xüsusilə Böyük Qafqazın qidalandırdığı çaylardır ki, əsasən, Kür və Qanıx çaylarına tökülür (Mazımçay, Balakənçay, Kürmükçay, Qaraçay, Katexçay, Talaçay, Kişçay, Şinçay, Əyriçay, Daşağılçay, Türyançay, Göyçay, Girdiman, Ağsuçay, Əlicançay, Dəmiraparan, hətta ölkəmizin qərb bölgəsində Kürə tökülən Ağstafaçay, Həsənsu, Tovuzçay, Əsrikçay, Zəyəmçay, Şəmkirçay, Qoşqarçay, Gəncəçay, Kürəkçay və sair), Talış dağlarından qidalanan çaylar (Bolqarçay, Viləşçay, Lənkərançay, Astaraçay, Təngərud) və müəyyən qədər də Böyük Qafqazın şərq hissəsindəki (Samur, Qusarçay, Qudyalçay, Qaraçay, Vəlvələçay, Gilgilçay, Şabrançay, Ataçay) Xəzərə tökülən çaylardır.

Əlbəttə, Kiçik Qafqaz (Qarabağ) dağ sistemlərində (Tərtərçay, Həkəriçay, Oxçuçay, Köndələnçay, Bərgüşadçay, Quruçay, Qarqarçay, İncəçay, Xaçınçay və sair), Naxçıvandakı yüksəkliklərdən başlayan çaylarda (Arpaçay, Naxçıvançay, Əlincəçay, Gilançay, Ordubadçay) və Qobustan-Abşeron çaylarında (Sumqayıtçay, Ceyrankeçməz, Pirsaat) da sel və daşqınlar tez-tez baş verir.

Bu arada qeyd edək ki, sellər də mahiyyətinə görə fərqlənir. Məsələn, əgər sel suları nisbətən də olsa, şəffafdırsa, nə qədər güclü gəlsə də, dağıdıcılığı xeyli az olur. Yox əgər sel lil-palçıqlı olarsa, dağıdıcılıq gücü dəfələrlə artır. Bu halda sel gətirdiyi süxurları və digər materialları həm öz dərəsində, həm də genişlənmiş subasarında, alçaq sahillərdə çökdürməklə öz yolunda manealər yaradır və dolayısıyla daşqının əhatəsini genişləndirir. Şəki-Zaqatala bölgəsinin, həmçinin Naxçıvanın yüksək dağlıq ərazilərinin çaylarında əsasən bu cür sellər mühahidə olunmaqdadır.

Elmi-statistik hesabatda qeyd olunur ki, Azərbaycan ərazisində 1 milyon insan məhz sel və daşqınların yaşandığı rayonlarda yaşayır. Yəni haradasa 18 rayonda 200-dən artıq yaşayış məntəqəsi sel təhlükəsi olan ərazilərdə yerləşir. Bu da o deməkdir ki, həm insanlar təhlükədədir, həm də 1 milyon vətəndaşın qurub-yaratdığı iqtisadi-sosial infrastruktur, iqtisadiyyat. Statistikaya əsasən sel bölgələrində 300 kilometr uzunluğunda dəmir yolları, 1000 kilometrdən artıq respublika əhəmiyyətli şosse yolları, yüzlərlə körpü və qurğu, çox sayda sənaye və kənd təsərrüfatı obyektləri mövcuddur.

Dağ çaylarını çox qabardırıq, amma əlbəttə ki, Kür və Araz çaylarında da sel halları yaşanır. Bu çayların dərəsi çox böyük olduğundan, ən əsası, onların üzərində su anbarları tikildiyindən, belə təbii fəlakətlər zamanı suyun səviyyəsini tənzimləmək olur. Düzdür, bəzən hövzənin qollarında sel mütəmadi hal alanda, anbarlar da köməyə çatmır. Xatırlayırsınızsa, yaxın keçmişdə Kür və Arazda suyun səviyyəsi o qədər qalxdı ki, Zərdabdan Salyanadək bütün sahilyanı yaşayış məntəqələrini su basdı. Fəlakətin miqyasını azaltmaq üçün Araz çayının sahilini yarmaqla suyun bir hissəsini Cəlilabad və Masallı istiqamətində boş çöllərə axıtdılar...

Təbiətin şıltaqlığı ilə necə davranmalıyıq, mümkün fəlakətlərə necə hazırlaşmalıyıq?

### Su gələn arxa sel gələr

**Fikrimizcə, birincisi, çay yataqlarına antropogen müdaxiləni dayandırmaq lazımdır. Yəni insanlar çay yatağındakı daş və qumdan istifadə edərkən suyun axın istiqamətinin dəyişməsinə şərait yaratmamalıdırlar. Dəfərlərlə daşqınlar məhz bu səbəbdən yaranıb.**

Məsələn, yataqdakı daş daşınarkən suyun axını sahillərdən birinə tərəf meyllləndirilib ki, bu da sel vaxt həmin istiqamətdə sahilin yuyulmaması, torpaq sürüşməsi və suyun ətraf əraziləri basması ilə nəticələnib. Başqa bir antropogen amil insanların nə vaxtsa sel olacağını nəzərə almadan, çayların subasarında tikinti aparması, malqara saxlayıb, əkin-biçinlə məşğul olmasıdır. Bu da bəs etmirmiş kimi, yaşayış evləri çayın tam sahilində və ya mümkün sel suyunun basa biləcəyi çökək ərazilərdə tikirlər. Bu halda onlar nə vaxtsa selin gələcəyini düşünmürlər. Hansı ki, qlobal istiləşmənin yaratdığı fövqaladə vəziyyətlərdə sel sürprizləri qaçılmazdır. Məsələn, bu yaxınlarda Masallı rayonunda belə hal yaşandı. Amma çayın ətrafında böyük bir kənd yerləşsə də, sel sadəcə bir qisim şəxsi təsərrüfatı basdı. Hansı ki, onların çoxu ya çayın lap sahilində yerləşirdi, ya da subasarlarda.

Bu yerdə haşiyə çıxaraq, qardaş Türkiyədən misal çəkək. Ötən ilin avqustunda Türkiyənin Qara dəniz sahili vilayətlərində - Kastamonu, Rizə, Artvin və digər məkanlarda güclü sel hadisələri oldu. Onlarca insanın həlak olduğu, milyonlarla dollar maddi ziyanın yarandığı bu fəlakəti araşdırarkən üzə çıxdı ki, şəhər birbaşa iki dağın arası ilə axan çayın hər iki sahili boyunca salınıb. Amma son dövrlərdə şəhərsalmada əndazəni aşıblar. Yəni çayın sahilləri beton istehkamla hörülərkən yataq süni şəkildə daha da sıxılaraq, daraldılıb. Binalar çayın lap sahilində tikilib, hətta bəzilərinin bünövrəsi birbaşa çayın yatağında qazılıb. Məlum sel dalğası gələrkən ilk olaraq məhz həmin binaları uçurub, yudu. Alimlər bu faktı nəzərə alaraq insanları çayların tarixən yaratdığı dərələri zəbt etməməyə çağırır və bildirir ki, əgər su nə vaxtsa bu dərəni yaradıbsa, mütləq oradan axa bilər. Atalar demişkən, su gələn arxa sel gələr.

### Bənd və istehkamlar

**Sel və daşqınların qarşısını almaq üçün başqa əlverişli üsullardan biri bənd və istehkamların yaradılmasıdır.**

Baxın, Mingəçevir su anbarı tikilməmdən öncə hər il Kür çayı daşaraq sahilyanı bölgələri basarmış. Ona görə də hökumətin planı və yerli əhalinin birbaşa dəstəyi ilə Kür sahili boyunca hündür torpaq tirlər - bəndlər tikildi. Məhz bundan sonra kənd evləri daşqın sularından xilas olub. Mingəçevir su anbarı tikiləndən sonra çayda axın sabitləşib və indiki dərəsi ilə Xəzərə axır. Bu gün də Ağdaş rayonunun güney kəndlərinə gedən olsa köhnə Kür yataqlarını (yerlilər axmaz deyirlər) və paralel istiqamətdə uzanan torpaq tirləri - bəndləri görə bilərlər. Həmin təcrübədən çıxış edərək, dağlıq bölgələrdəki bir çox yaşayış məntəqəsini mütəmadi sel daşqınlarından qorumaq olar.

Qəbələ, İsmayıllı, Şəki-Zaqatala, Masallı-Lənkəran kimi dağlıq bölgələrdə elə kəndlər var ki, birbaşa çayların subasarında salınıb və hər il sel zamanı şəxsi təsərrüfatlar, əkin sahələri, bağlar, yollar suyun altında qalır. Nəzərə alaq ki, dağlıq bölgələrdə yüksək meyllilik səbəbindən axın olduqca güclü olur və kəndlərin yerləşdiyi geniş dərəyə çıxarkən sürət yavaşıyır və su en istiqamətində yayılır. Bunun qarşısını almaq üçün çayın azsulu dövründə yataq gətirmə çöküntülərdən təmizlənməli, mümkün hallarda daha alçaq sahillərdə istinad divarları tikilməlidir. Dərə təmiz olduqda və mümkün təqdirdə istinad divarları da tikildikdə, sürətli axın öz yolu ilə axıb gedəcək. Yenə deyirəm, çayın dərəsi insanlar tərəfindən mənimsənilməsin...

### Su anbarları...

**Sel və daşqınların qarşısını almaq üçün ən vacib amillərdən biri və bəlkə də birincisi isə çayların qarşısında - elmi baxımdan əsaslandırılmış bölgələrdə iri bəndlərin tikilərək, su anbarlarının yaradılması ola bilər.**

Bu üsul daha çox iri çaylar üçün xarakterik olsa da, qlobal istiləşmədən asılı olaraq, içməli və suvarma suyuna tələbatın ildən-ilə həndəsi sürətlə artdığı bir vaxtda kiçik çaylarda da su anbarlarının tikilməsi vacibdir.

Yuxarıda qeyd etdiyimiz kimi, dağ çayları yüksək sürətli olduğundan burada yaradılan su anbarları həm uzun və quraq yay dövrü üçün fərqli bölgələrdə böyük depolamasına, həm də yerli əhəmiyyətli də olsa, elektrik enerjisinin istehsalına şərait yaradar. Bu halda yazın yağışlı aylarında çayda suyun səviyyəsi artanda anbarda toplanar və sel təhlükəsini avtomatik aradan qaldırar. Bayaq da qeyd etdiyimiz kimi, məhz Mingəçevir su anbarının tikilməsi Mərkəzi Aran bölgəsinin yaşayış məntəqələrini və min hektarlarla əkin sahələrini daşqınlardan xilas elədi.

Əvvəlində selə meylli çayların bir çoxunun adını qeyd etmişdik və hərəsi də respublikamızın bir bölgəsindədir. Bu qədər çayın üzərində su anbarlarının yaradılması, əlbəttə, böyük maliyyə xərci tələb edir, amma nəticədə nə qədər enerji istehsalına, nə qədər torpağın suvarılmasına, insanların içməli su ilə təchizatına, həmin anbarlarda lazım olduqda balıqçılıq təsərrüfatı yaradıldığı halda bazarların balıq əti ilə təmin edilməsinə şərait yaranacaq ki, bu da öz növbəsində gələcəkdə qeyri-neft sektorunun inkişafına və dövlət büdcəsinə əlavə vəsaitin daxil olmasına imkan yaradacaq.

Göründüyü kimi, təbiət özünün bir hissəsi olan insanları öldürmək istəmir, əksinə, onlara daha geniş imkanlar təqdim edir. Üsulu sərtdir, amma bu insanları düşünməyə məcbur etmək üçündür. Odur ki, işindən-peşəsindən, vəzifəsindən asılı olmayaraq insanlar oturub düşünməlidir: nə edək ki, təbiətin qəzəbindən yan keçək və həm də ondan faydalanaq...

*✍ Vüsal Tağıbəyli*

# Beynəlxalq yükdaşımalarda yeni düzən

***Rusiya-Ukrayna müharibəsi dünyanın nəqliyyat-logistika marşrutunu ciddi şəkildə dəyişib. Mövcud vəziyyətlə əlaqədar artıq bir neçə ölkə yükdaşımalarda alternativ yollar axtarır. Xatırladaq ki, Avropa İttifaqı Rusiyaya qarşı sayca beşinci sanksiya paketi üzərində müzakirələri başa çatdırıb. Aprelin 9-dan qüvvəyə minən yeni sanksiyalar çərçivəsində Rusiyaya məxsus, yaxud bu ölkənin operatorları tərəfindən idarə olunan gəmilərin Aİ yurisdiksiyasında olan limanlara girişi qadağan olunub. Eyni zamanda, Rusiya və Belarusa məxsus avtomobil nəqliyyatının birlik ölkələri ərazisində hərəkəti də məhdudlaşdırılıb.***



## Tranzit

"Err" nəşrinin məlumatına görə, elə ilk gündən Rusiya və Belarusdan gələn 152 yük maşını AB-nin yeni sanksiyaları səbəbindən Latviya sərhədindən buraxılmayıb. Latviya Sərhəd Xidmətinin rəsmisi Andrey Vayvars məsələ ilə bağlı deyib ki, aprelin 9-dan sanksiyalar qüvvəyə mindiyi üçün Rusiya və Belarus nömrəli yük maşınlarının Avropa Birliyinin sərhədlərini keçməsi qadağan edilib.

### Azərbaycan əsas tranzit məkan olacaq

**Beləliklə, Aİ-nin yeni sanksiyalarından sonra Rusiya Avropa istiqamətində dəniz və avtomobil nəqliyyatı ilə yükdaşımaların mühüm hissəsindən məhrum olub.**

Bu isə şimal qonşumuzu Asiya istiqamətindən yüklərin Azərbaycan üzərindən keçən marşrutla nəqlini artırmağa sövq edir. Bir neçə gün öncə Azərbaycan-Rusiya sərhədində Yaraq-Qazmalar buraxılış məntəqəsinin ərazisində gündəlik ötürücülük gücü 100 yük maşını olan yeni hərəkət zolağı istifadəyə verilib. Rusiya Gömrük Xidmətinin məlumatına görə, bu məntəqədə gündəlik tələbat 500-550 yük maşınına çatır: "Antirusiya sanksiyaları və Rusiya Federasiyasının Avropa ölkələri ilə yük nəqliyyatı əlaqəsinin bloklanması şəraitində Şimal-Cənub nəqliyyat dəhlizinin ölkəmiz üçün əhəmiyyəti artır. Yaraq-Qazmalar Rusiya-Azərbaycan sərhədində ən böyük və ən çox yüklənən buraxılış məntəqəsidir. İran, Türkiyə və Azərbaycandan Rusiyaya yüklərin, xüsusilə də təzə tərəvəzin çatdırılmasında fasiləsizliyin təmin olunması onun fəaliyyətindən birbaşa asılıdır".

Ümumilikdə, yaranmış vəziyyətlə əlaqədar Azərbaycan üzərindən yükdaşımalar Avropa üçün xüsusi maraq doğurmağa başlayıb. Bu fonda Çindən gələn yüklərin daha çox Azərbaycan üzərindən Avropaya nəqli gözlənilir. Əks istiqamətdə də yükdaşımalarda yenə Azərbaycan əsas tranzit məkan olacaq. Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu bu fonda daha işlək hala gələcək. Onu da qeyd edək ki, Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu ölkəmizin ərazisindən keçən beynəlxalq nəqliyyat marşrutları arasında ən mühümüdür. Belə ki, ölkəmizin ərazisindən keçən digər nəqliyyat marşrutları ilə müqayisədə dəmir yolu ilə konteyner yükdaşımaları ən çox bu marşrut vasitəsilə həyata keçirir. Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu üzrə Azərbaycan ərazisindən keçməklə 2021-ci ildə əsasən 12 istiqamətdə həyata keçirilmiş yükdaşımaların strukturunda 1-ci yerdə Çin-Türkiyə, 2-ci yerdə Qazaxıstan-Türkiyə, 3-cü yerdə isə Gürcüstan-Qazaxıstan istiqamətidir. Xatırladaq ki, Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu 2014-cü ilin fevral ayında Azərbaycan, Qazaxıstan və Gürcüstanın müvafiq strukturlarının iştirakı ilə yaradılıb. Sonradan layihəyə Ukrayna, Rumıniya və Polşa qoşulub. Hazırda marşrut Çin-Qazaxıstan sərhədindən başlayır və Qazaxıstan, Xəzər dənizi, Azərbaycan və Gürcüstan ərazisindən keçərək Avropaya qədər uzanır. Bütün marşrut boyunca vahid tarif yaradılıb, "vahid pəncərə" prinsipi tətbiq olunur. Bu günlərdə isə Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunu (TBNM) inkişaf etdirmək məqsədilə Qazaxıstan, Azərbaycan və Gürcüstan tariflərin müəyyən edilməsi, yük bəyannaməsi və tranzit yüklərin konsolidasiyası ilə bağlı məsələləri həll edəcək birgə müəssisənin yaradılması barədə razılığa gəlib. Bütün bunlar fonunda ekspertlər hesab edir ki, "Şimal-Cənub", "Şərq-Qərb" beynəlxalq nəqliyyat dəhlizləri, Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu, Bakı-Tiflis-Qars dəmir yolu xətti, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Ələt Azad İqtisadi Zonası, İranla reallaşdırılan Cənubi Zəngəzur dəhlizi, perspektivdə Ermənistan ərazisindən keçəcək Qərbi Zəngəzur dəhlizi Azərbaycanı tranzit mərkəzinə çevirməklə yanaşı, yük daşımaları sahəsində potensiali olan ölkələrə ucuz və qısa zamanda daşıma imkanları təqdim edir. Bu amillərin nəticəsidir ki, indi dünyada Azərbaycan əlverişli biznes məkanı kimi qəbul olunur. Beynəlxalq nəqliyyat və kommunikasiya layihələrinin həyata keçirilməsi isə Azərbaycan iqtisadiyyatının şaxələndirilməsinə töhfə verməklə yanaşı, dünyada ölkəmizin cəlbediciliyini və rəqabət qabiliyyətini daha da artırır. Artıq Azərbaycan Asiya ilə Avropa arasında yerləşən ölkə kimi Avrasiya məkanında nəqliyyat-logistika sahəsinin inkişafına böyük töhfələr verir.

> *"Şərq-Qərb" dəhlizi ilə daşınan yüklərin həcmi artacaq*

> *Rusiyaya tətbiq edilən sanksiyalar Qafqazın rolunu artırır*

### "Şərq-Qərb" dəhlizi...

■ **Mövzu ilə bağlı hafta.aza danışan millət vəkili Vüqar Bayramov deyib ki, bütövlükdə Rusiya-Ukrayna müharibəsindən sonra Azərbaycan üzərindən daşınan yüklərin həcmində artımların olacağı gözlənilir:** "Nəzərə alsaq ki, Rusiyaya qarşı sanksiyalar fonunda xüsusən də bu ölkədən yükdaşımaların həcmində kəskin azalmalar müşahidə olunacaq. Eyni zamanda, İrana qarşı da sanksiyalar mövcuddur. Və praktik olaraq bu da Cənubi Qafqazın, xüsusən də Azərbaycanın beynəlxalq yükdaşımalar baxımdan əhəmiyyətini daha da artırır. Gözlənilir ki, mövcud vəziyyət xüsusən "Şərq-Qərb" nəqliyyat dəhlizi vasitəsilə Azərbaycan üzərindən daşınan yüklərin həcminin artmasına gətirib çıxaracaq. Pandemiyadan əvvəlki ildə Azərbaycan üzərindən xüsusən də qeyri-neft sektoru üzrə daşınan yüklərin həcmində 65 faiz artım qeydə alınmışdı. Və bu artım nəticə etibarilə ölkəyə daha çox valyutanın daxil olmasına imkan yaratmışdı. Bu baxımdan beynəlxalq yükdaşımalar Azərbaycan üçün qeyri-neft sektorunda əsas gəlir mənbələrindən biri kimi xarakterizə olunur. Və gözlənilir ki, növbəti dövrdə də, yəni, yeni düzən kontekstində Azərbaycan üzərindən daşınan yüklərin həcmində artımlar olacaq. Nəzərə alsaq ki, Azərbaycanın əsas hissəsi ilə Naxçıvanı İran üzərindən quru nəqliyyatı birləşdirəcək. Zəngəzur dəhlizinin reallaşması ilə bağlı da müzakirələr davam edir. Təbii ki, dəhlizlərin istifadəyə verilməsi də region, eləcə də Azərbaycan üzərindən daşınan yüklərin həcmində kəskin artımlara gətirib çıxaracaq. Bu da Azərbaycanın valyuta gəlirlərinin artmasına xidmət edəcək".

### Rusiyaya tətbiq edilən sanksiyalar Qafqazın rolunu artırır

■ **Məsələ ilə bağlı hafta.az-la fikirlərini bölüşən iqtisadçı ekspert Xalid Kərimli də hesab edir ki, Rusiyaya qarşı tətbiq olunan sanksiyalar fonunda Qafqazın dünyada rolu artır:** "Əslində Rusiya və Ukrayna arasındakı münaqişə ölkəmiz üçün heç də yaxşı hal deyil. Nəzərə alsaq ki, Azərbaycanın hər iki ölkə ilə ciddi ticarət əlaqələri var. Bizim Rusiya ilə ümumi ticarət dövriyyəmiz 2,8 milyard dollar, Ukrayna ilə 900 milyon dollardır. Yəni, bu münaqişənin neqativ tərəfləri çoxdur, yükdaşımaların yönü dəyişdiyinə görə ticarətə ciddi təsir göstərir, nəticədə xüsusən ərzaq qiymətləri sürətlə artır. Ancaq bunun pozitiv tərəfləri də var. Biz uzun müddət idi ki, Böyük İpək Yolundan danışırdıq. Çindən, Mərkəzi Asiyadan Azərbaycan üzərindən keçməklə Türkiyəyə, Avropaya malların ixracı məsələsi müzakirə olunurdu. Belə demək mümkündürsə, Rusiyaya tətbiq edilən sanksiyalar Qafqazın rolunu artırır. Yəni, bu yeni imkanlar deməkdir. Hazırda Azərbaycan bu istiqamətdə müəyyən işlər görüb, həm yol, həm dəmir yolu, həm də boru nəqliyyatının qurulması istiqamətində bizim ciddi addımlarımız və investisiyalarımız var. Avropanın Rusiyadan hər hansı əlaqədən yayınması Azərbaycanın, xüsusən də Zəngəzur dəhlizinin rolunu artırır. Təbii ki, ölkəmiz çalışıb yaranmış imkanlardan diqqətlə faydalanmalıdır. Biz ölkə olaraq Zəngəzur dəhlizinin qurulması üçün bütün siyasi, iqtisadi təzyiqləri, təsirləri, xərcləmələri həyata keçiririk. Ümumi şəkildə Mərkəzi Asiyanın enerji layihələrinin Azərbaycan üzərindən keçirməklə Avropaya ixracında rol oynaya biləcək Nabukko layihəsi də gündəmə gəlir. Bu isə böyük tranzit əhəmiyyət yaradır".

*✍ Sevinc*

*Azərbaycan yazıçı və şairlərinin, tərcüməçilərinin ən böyük ictimai təşkilatı olan Azərbaycan Yazıçılar Birliyi (AYB) 13 iyun 1934-cü ildə yaradılıb. SSRİ dövründə Yazıçılar İttifaqı adlanan birliyin hazırda 2000-dən çox üzvü var. Birlik üzvlərindən cəmi 11 qələm adamı isə "Xalq şairi" və "Xalq yazıçısı" fəxri adını alıb.*

# Ədəbi mühitdə fəxri adlar

## Sorğu

### İlk xalq yazıçısı erməni olub

**Nəzərinizə çatdıraq ki, İlk dəfə Azərbaycanın Xalq yazıçısı fəxri adı erməni əsilli Aleksandr Şirvanzadəyə 1930-cu ildə verilib. Ümumilikdə, sovet hökuməti zamanında Azərbaycan SSR-də 30-dan artıq şəxsə Xalq şairi və Xalq yazıçısı adı verildi.**

Mədəniyyət xadimləri üçün ən yüksək titullardan olan "Xalq artisti", "Xalq şairi", "Xalq yazıçısı", "Xalq rəssamı" və bu kimi fəxri adların verilməsi əvvəllər heç də fərdi üstünlük nəzərə alınaraq həyata keçirilmirdi. Müstəqillik illərindən sonra dəyişən bir çox proses kimi bu da öz funksiyasını dəyişdi. İndi xalq tərəfindən sevilən, hörmət və rəğbət bəslənilən, həmçinin mədəniyyətimiz üçün xidmətləri olan şəxslərə belə adlar verilir.

Hafta.az-ın əməkdaşı yazıçılar və şairlər arasında sorğu keçirərək daha hansı yazıçılara və şairlərə fəxri adlar verilməsini istədiklərini öyrənib.

### Fəxri ada qarşı çıxanlar da var, dəstəkləyənlər də...

■ **İlk müsahibimiz olan yazıçı Şərif Ağayar belə adlara ciddi baxmadığını, bu səbəbdən də məsələyə münasibət bildirməyəcəyini söylədi.**

■ **Şair Cəlil Cavanşir isə ümumiyyətlə fəxri adlara qarşı olduğunu, belə adların yazıçıya və ya şairə verilməsinin onların boynuna minnət yükləmək, bir növ neytrallaşdırmaq olduğunu bildirdi:**

"Hətta dövlət, fəxri adı verən qurum nə isə gözləməsə də, sənət adamı özünü sıxmağa başlayır. Bu baxımdan 11 xalq şairi və yazıçısı da bizə kifayətdir, hətta çoxdur. Ümumiyyətlə, dövlət sovetdənqalma təltif sistemini ləğv etsə, daha azad, daha təmiz mühit yaranar, fəxri ad üçün qapılarda qalanlar da rahat həyatını yaşayar.

Qeyd etdiyim kimi, heç kəsin fəxri ad alması mənim üçün maraqlı deyil. Tezliklə "Xalq şairi" və "Xalq yazıçısı" olmayan ədəbi mühit arzusundayam. Bir daha qeyd edirəm, məncə, heç kəsə fəxri ad verilməməlidir. Yüzlərlə titulsuz şair və yazıçı var ki, onlar titullu şair və yazıçılardan daha ciddi, daha məhsuldar və ədəbiyyat üçün daha faydalıdırlar. Bu baxımdan arzulayıram ki, hələ ki, bu adı almış şair və yazıçılar mümkün qədər xalqın adamı olsunlar. Əgər çiyinlərində daşıdıqları yükün fərqində deyillərsə və sənətin mahiyyətini anlamırlarsa, aldıqları fəxri adlardan da imtina etsinlər".

■ **Şair Vahid Əzizin fikrincə, məsələyə vahid ədəd prinsipi ilə yanaşmaq doğru deyil. Yəni burada sayın heç bir əhəmiyyəti yoxdur. Daha sonra şair öz namizədlərini də dilə gətirdi:**

"Mən Baba Vəziroğlu, Xanım İsmayılqızı və Ramiz Qusarçaylını bu sıralarda görürəm. Fikrimcə, fəxri ad alan adamlar, əsil qələm sahibi olmalı, cəmiyyətdə yetərincə hörmət və nüfuz qazanmalıdırlar".

■ **Gənc və istedadlı yazar Aqşin Evrən də belə fəxri adların əhəmiyyətsiz olduğunu düşünənlər sırasındadır.** Yazar hesab edir ki, fəxri adların ləğv edilməsi nə qədər çox müzakirə olunsa da, yaxın 10-15 il üçün bu real



görünmür: "Ümumiyyətlə, xalq şairləri, xalq yazıçıları bir ölkənin ədəbi simasının, mühitinin mətn nöqteyi-nəzərdən formalaşmasında rol oynamırlar. Yeni Azərbaycan ədəbiyyatından bu fəxri adları (şəxsləri yox) çıxarsaq, heç nə itirmərik. Fikrimcə, sovet dönəmində və müstəqilliyin ilk illərində bu fəxri adlar hansısa missiyaya xidmət edirdi. Hazırda bunun funksionallığı sıfır həddinə enib. Bu dəqiqə hansısa xalq şairi, yazıçısı çıxıb cəmiyyətə müraciət etsə, bundan, uzağı, 2-3 min adam xəbər tutacaq. Yeni insan modeli kitabın dediklərinə yox, tiktokun göstərdiklərinə baxır, qulaq asır. Elə xalq yazıçıları var ki, xalq onun heç bir cümləsini belə oxumayıb: şəhərdə sorğu keçirsək, 100 nəfərdən, bəlkə, 2-si tanımaz.

Ona görə də yazıçı-şairlərimizin xalqın şairi, yazıçısı olmasını istərdim. Bundan sonra onlara bu fəxri adlar verilsə, o başqa məsələ. O ki qaldı xalq şairi və xalq yazıçısının necə olmasına, məncə, bu lauratın adı özü hər şeyi deyir. Zaman-zaman bu adların ləğv edilməsi məsələsi gündəmə gəlir. Xalq şairi, xalq yazıçısı fəxri adları ləğv edilsə, onda gərək xalq artisti, əməkdar artist kimi adlar da ləğv edilsin. Ədəbiyyatda çox olmasa da, musiqi-film sektorunda bu adları almaq eşqi ilə yaşayan yüzlərlə insan var. Ona görə də yaxın 10-15 ildə bu adların ləğv ediləcəyini düşünmürəm".

■ **Yazıçı Zahid Xəlil də saytımıza açıqlamasında bu tip fəxri adlara ehtiyac görmədiyini söylədi.** Qələm adamlarının açıqlamalarından belə aydın oldu ki, bugün fəxri adların verilməsi gənc nəsillə yanaşı yaşlı nəslin nümayəndələri üçün də böyük maraq daşımır.

### Fəxri ada görə nə qədər pul verilir?

Bəs, "Xalq şairi" və "Xalq yazıçısı" fəxri adları hansı meyarlar nəzərə alınaraq müəlliflərə təqdim edilir?

■ **Hafta.az-ın əməkdaşı məsələ ilə bağlı Azərbaycan Yazıçılar Birliyinə (AYB) sorğu ünvanladı. AYB-in mətbuat katibi Xəyal Rza açıqlamasında bildirdi ki, Xalq yazıçısı və Xalq şairi adının verilməsinə Yazıçılar Birliyi təqdimat verir. Buna qərar verən ölkə rəhbərliyidir. Təqdimat olmadan da bu adlar verilə bilər.**

X.Rzanın sözlərinə görə, təqdimatlar kifayət qədər tanınan, bilinən, əsərləri oxunan şəxslər nəzərə alınaraq hazırlanır: "Misal üçün, ən son bu adı alanlardan və təqdimatı Yazıçılar Birliyi tərəfindən verilən Ramiz Rövşənin adını çəkə bilərəm. Təbii ki, belə bir şərt yoxdur ki, yazıçı və şair mütləq fəxri ad almaq üçün Yazıçılar Birliyinin üzvü olmalıdır".

Qeyd edək ki, "Xalq şairi" və "Xalq yazıçısı" adları verilən mədəniyyət xadimləri 150 manat aylıq məvacib alırlar. Əvvəllər isə bu rəqəm 100 manat idi.

Bəs görəsən, kıtabı nəşriyyatlarda ən yüksək tirajla çapa verilən yerli müəllif kimdir? Ən yüksək qonorarı hansı yazıçılar ala bilir? Vətən müharibəsindən sonra müvafiq mövzu ilə bağlı kitab çapı üçün müraciətlərdə artım olubmu? Hafta.az-ın əməkdaşı mövzu ilə əlaqədar naşirlər və kitabçılar arasında sorğu apardı. Araşdırmanı sizə təqdim edirik:

■ **Tərcüməçi-yazar, "Qanun" nəşriyyatının direktoru Şahbaz Xuduoğlu:**

- Vətən müharibəsinin ardınca elə isti-isti itkilərlə bağlı əsərlər olub. Biz qələbədən dərhal sonra Prezidentin kitabını nəşr etdik. Burada onun 44 gün ərzindəki çıxışları, müsahibələri və tvitləri yer alırdı. Bədii əsərlərə gəldikdə isə onu deyim ki, bu qısa zaman ərzində ərsəyə gələ bilməz. Bəzən müvafiq mövzuda əsərin yazılması üçün müharibənin üzərindən 20-30 il vaxt keçməlidir.



"Maraq daha çox hansı kitablaradır?" sualına gələn cavablar əsasən tərcümələrlə bağlı olsa da, burada naşir yerli müəlliflərdən İlkin Rüstəmzadəni xüsusi vurğuladı.

- Əsərləri daimi olaraq çox satılan müəlliflər var. Bunlar, əsasən, özünüinkişaf kitablarıdır. Özünüinkişaf sahəsində "Xırda vərdişlər" kitabını nəşr etmişik. O, birinci yerdə satılır. Yanaşı olaraq çox satılanlar, əsasən, tərcümə əsaslı olan kitablardır. Uzun illərdir, tərcümələr yüksək reytinqini qoruyub-saxlayır. Yerli müəlliflərdən kitabı ən çox satılan İlkin Rüstəmzadədir. Onun kitabının 2000 nəşrdən ibarət birinci tirajı bitdikdən sonra, eyni sayda ikinci nəşr də olundu. "Qanun" nəşriyyatının direktoru bir sıra yerli müəllifə yüksək qonorar verildiyini də açıqladı:

- Qonorar sistemi elədir ki, burada hər kəsə fərdi yanaşılır. Elə müəllif var ki, onun kitabı satılmır. Bu halda biz necə qonorar verə bilərik? Kitabı çox satılan müəllifə isə verilir. Misal üçün, Çingiz Abdullayevi, Şərif Ağayarı, Qaraqanı, İlkin Rüstəmzadəni göstərə bilərik. Demirəm ki, onlara yüksək qonorar veririk, ancaq cüzi də olsa ödənişlər edilir.

■ **"Altun-kitab" nəşriyyatının direktoru, dilçi-alim Rafiq İsmayılov deyir:**

- Biz daha çox uşaq kitabları və dərsliklərlə məşğuluq. Belə kitablar arasında daha çox Reyhan Yusifqızının kitablarını çap etmişik. Qalanları isə daha çox dünya ədəbiyyatının uşaqlar üçün adaptasiyasıdır (bir növ sadələşmiş versiya). Kitabı çap olunan yerli müəlliflərə qonorar verilir. Bu məbləğ dünya standartı ilə müqayisədə o qədər böyük deyil, ancaq buna uyğundur. O müəllifə qonorar verilir ki, həmin kitabın çapından naşir də yüksək gəlir əldə edə bilsin. Bu, dövlət büdcəsi hesabına baş vermir. Buna görə də özünümaliyyələşdirmədə olan nəşriyyatlar, müəlliflərə kitabın gəlirindən olan faiz, yaxud birdəfəlik qonorar ödəyirlər.

Vətən müharibəsi mövzusunda əsərlərə gəldikdə isə bununla bağlı ayrıca kitab çapı üçün müraciət edən olmayıb. Biz özümüz dərsliklərə həm birinci, həm də İkinci Qarabağ müharibəsindən bəhs edən hekayələr yazıb əlavə edirik.

■ **"Hədəf nəşrləri"nin baş redaktoru Cavid Qədir söyləyir:**

- "General Polad Həşimov xatirələrdə" kitabı Vətən müharibəsindən sonra geniş tirajla oxuculara təqdim olunub. Ümumiyyətlə, nəşriyyatımızın ən yüksək tirajla çap olunan məhsuludur.

Konkret müəllifin məhsulu olmayan kitab "Xatirə ədəbiyyatı" seriyasında çap olunub. Nəşr şəhid general haqqında ailə üzvləri, qohumları, dostları, eləcə də zabit və əsgərləri, döyüş yoldaşlarının xatirələrindən ibarətdir. Kitabın sonunda Milli Qəhrəmanın ömür yoluna nəzər salmaq üçün hazırlanmış 60 səhifəlik fotoalbom yer alır.

Bu məsələ nəşriyyatların qonorar siyasəti və yerli kitab bazarının vəziyyəti ilə əlaqədar dəyişə bilər. Ona görə də konkret ad çəkmək, yaxud məbləğ göstərmək doğru deyil. Söhbət bizim nəşrlərdən gedirsə, ən yüksək qonorar 2021-ci ildə elan etdiyimiz tenderin qalibləri olan Aynur Cavid və Cəmilə Məmmədliyə ödənilib. Tenderin qalibləri 50 müəllif arasından seçilib və hazırda "Bilgənin macəraları" silsiləsi üzərində işləyirlər. Silsilənin ilk kitabı yaxın vaxtlarda işıq üzü görəcək.

■ **"Əli və Nino" kitab evinin təsisçisi Nigar Köçərli deyir:**

- Hazırda kitabları ən çox satılan müəlliflər İlkin Rüstəmzadə və Aytən Cavanşirdir.

***Banu***

## HƏFTƏ REYTİNQ

### Həftənin QONAĞI



İsrailin maliyyə naziri Aviqdor Liberman bu gün Azərbaycana səfər edib. A. Libermanın başçılıq etdiyi nümayəndə heyəti görüşlər zamanı İsrailə Azərbaycan neftinin və karbamidin tədarükü, o cümlədən İsrailə buğda ixracı məsələlərini müzakirə edib.

### Həftənin TƏLTİFİ



Rusiya Prezidenti Vladimir Putin Dövlət Dumasının deputatı Adam Delimxanova "Rusiya Qəhrəmanı" adı verib. Putin bununla bağlı sərəncam imzalayıb. Bildirilir ki, Adam Delimxanov "Donetsk Xalq Respublikası", "Luqansk Xalq Respublikası" və Ukrayna ərazisində hərbi əməliyyatlarda nümayiş etdirdiyi igidliyə görə "Rusiya Federasiyası qəhrəmanı" adına layiq görülüb.

### Həftənin MƏKTUBU



İsrailin Baş naziri Naftali Bennetin evinə içərisində güllə gilizinin olduğu təhdid məktubu göndərilib. Bu barədə İsrail İctimai Yayım Korporasiyası məlumat yayıb. Qeyd edilib ki, İsrail polisi məsələ barədə araşdırmalara başlayıb. Təhdid məktubuna Bennet öz tviter hesabında münasibət bildirib. "Siyasi qarşıdurma nə qədər dərin olsa da, zorakılıq və ölüm təhdidləri səviyyəsinə yüksəlməməlidir", - o vurğulayıb.

### Həftənin TƏHDİDİ



"Avropa Rusiya qazı olmadan bir həftə davam gətirə bilməz". Bunu Rusiya Təhlükəsizlik Şurasının sədr müavini Dmitri Medvedev bildirib. O qeyd edib ki, Avropa Komissiyası qaza görə rublla ödənişə icazə verib və hesab edir ki, Rusiya Prezidentinin fərmanı hələ də Avropa biznesi tərəfindən tətbiq oluna bilər: "Avropa bizim qazsız altı aydan çox qala bilməz. Amma ciddi şəkildə, bir həftə belə davam gətirə bilməz".

### Həftənin YARDIMI



Azərbaycan karateçisi İrina Zaretska Portuqaliyanın Matozinyuş şəhərindəki Karate1 Premyer Liqa turnirində qazandığı mükafatı Ukrayna ordusuna verəcək. Bu barədə idmançı özü açıqlamasında deyib. O, turnirdə əldə etdiyi gümüş medala görə aldığı məbləği Ukrayna uğrunda döyüşənlərə göndərəcəyini açıqlayıb.

### Həftənin İMTİNASI



Azərbaycan Boks Federasiyasının İdarə Heyətinin iclası keçirilib. Yığıncaqda mayın 21-31-də Ermənistanın paytaxtı İrəvanda təşkil olunacaq kişi boksçular arasında Avropa çempionatında iştirak məsələsi müzakirə edilib. Müzakirələr nəticəsində həssas məqamlar nəzərə alınaraq may ayında Avropa çempionatına qatılmamaq barədə qərar qəbul edilib.

### Həftənin QAZANCI



Rejissor Kənan M.M. TikTok sosial şəbəkəsindən əldə etdiyi gündəlik gəlirini açıqlayıb. O, "Günə doğru" verilişində danışıb. Rejissorun sözlərinə görə, onun sosial şəbəkədən gündəlik gəliri 200 dollar təşkil edir: "Əvvəl hesab açanda fikirləşdim ki, birdən canlı yayımda uduzaram. Belə də oldu. Sonra izləyici yığıldı. Pula çevirəndə təxminən 200 dollar qazanıram".

*Azad Əliyev*

## GÜNÜN FOTOSU



**Litvalı musiqiçi Darius Mazintas Ukraynanın dağılan İrpin şəhərində piano çalarkən**

# Karantin cərimələri

**Silinməsi nə dərəcədə realdır?**

**Müşfiq Cəfərov,**
millət vəkili

Bu cərimələrin tətbiqi sadəcə pandemiyaya uyğunlaşmaq, qaydalara əməl edilmək üçün idi.

▸▸ Səh. 5

## STATİSTİKA



■ Bu günə qədər yaz sessiyası dövründə 3342 tələbə kredit almaq üçün müraciət edib.

■ 366 müraciət banka göndərilib, 695-i natamam olub, 416-sı emaldadır, 184 müraciətə isə imtina verilib.

■ Yaz sesssiyasında bu günə qədər 1681 tələbəyə kredit verilib. Bunlardan 588-i sosial TTK, 1093-ü isə standart TTK üzrə rəsmiləşdirilib.



▸▸ Səh. 7

# Azərbaycanda sel təhlükəsi